

## Xilaskarlıq missiyasının başlanğıc nöqtəsi

4

Səs

№ 097 (6538) 3 iyun 2022-ci il. Qiymәti 60 qәpik

# Dünyanın ehtiramla yanaşdığı LİDER!

Prezident İlham Əliyevə ünvanlanan təbrik məktubları Azərbaycan Prezidentinin beynəlxalq aləmdəki nüfuzunun təcəssümüdür



2



8

## Qalib kim olacaq, Avropa İttifaqı, yoxsa Rusiya?

## "Bu, Azərbaycanın tanınmasına və daha çox turist axınına səbəb olur"




5

## Rusiyalı politoloq Ermənistandakı vəziyyəti şərh etdi: qənaətbəxş deyil



3

## 250 erməni Azərbaycan pasportu almağa hazırlaşır



## Bahalı qəbirlər, dəbdəbəli yaslar - ədabazlıq, yoxsa əsarət?



# Dünyanın ehtiramla yanaşdığı LİDER!

## Prezident İlham Əliyevə ünvanlanan təbrik məktubları Azərbaycan Prezidentinin beynəlxalq aləmdəki nüfuzunun təcəssümüdür



**Tarix sübut edir ki, hər bir dövlətin istər inkişafında, istər nüfuzunun formalaşmasında, istərsə də qlobal proseslərdəki iştirak səviyyəsində lider amili böyük rol oynayır. Elə Azərbaycanın geridə qoyduğu 30 illik müstəqillik yolu əsl siyasi liderlərin xalqların və dövlətlərin həyatında nə qədər vacib rol oynadığını göstərən möhtəşəm tarixi və politoloji nümunədir.**

İnkaredilməz reallıqdır ki, Azərbaycan xalqı və dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, gerçək müstəqilliyini əldə edərək qoruyub saxlamasını təmin edən dahi şəxsiyyət, əbədiyaşar lider, ulu öndər Heydər Əliyev olub. İctimai-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində ümummilli lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. İstər 1969-cu il iyulun 14-dən - Ulu Öndərin ilk dəfə siyasi hakimiyyətə gəldiyi və istərsə də 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə gəlməklə Azərbaycanı vətəndaş müharibəsindən - qarşıdurmadan, tənəzzül və məhv olmaq təhlükəsindən xilas edərək dirçəliş yoluna çıxardı.

Bu gün isə, Ulu Öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və dinamik inkişafa nail olub. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Dövlətimizin başçısının rəhbərliyi ilə daxili və xarici siyasət sahəsində görülən işlər, əldə edilən nailiyyətlər Azərbaycan dövlətinin qüdrətinin artmasında ifadə olunur. Məhz 30 ilə yaxın işğal altında olan torpaqlarımız DÜNYANIN EHTİRAMLA YANAŞDIĞI LİDER, Ali Baş Komandan Prezident İlham Əliyevin "Dəmir yumruq" siyasəti ilə Müzəffər Ordumuzun rəşadətli əsgər və zabitlərinin igidliyi ilə 44 günlük Vətən müharibəsində azad edildi, ərazi bütövlüyümüz bərpa olundu. Son 200 illik tariximizdə ilk dəfə torpaqlarımızı işğaldan azad edən müzəffər Sərkərdə oldu. Bu, həm də Prezidentin ata vəsiyyətini yerinə yetirməsi demək idi. Artıq Ulu Öndərin ruhu şaddır ki, Vətən torpaqlarımız erməni işğalından azad olunub. İndi ölkəmizin qarşısında mühüm vəzifələr durur. Qarşıda dayanan əsas vəzifə isə işğaldan azad edilmiş ərazilərin bərpası və insanların öz doğma yurdlarına qayıtmasıdır. Bütün bu uğurlar məhz Qalib Lider Prezident İlham Əliyev cənablarının diplomatiyasının nəticəsidir. Bu gün dünyanın güclü dövlətlərinin liderlərinin istər Qələbə Zəfərimizlə, istərsə də 28 May - Respublika Günü münasibətilə Prezident İlham Əliyevə ünvanlanan bütün məktublar sübut edir ki, Azərbaycanın dünyadakı nüfuzu Vətən müharibəsindəki qələbəmizdən, biz tarixi ədaləti bərpa etdikdən sonra daha da artıb.

### PREZİDENT İLHAM ƏLİYEVƏ ÜNVANLANAN TƏBRİK MƏKTUBLARINDA QEYD EDİLƏN FİKİRLƏR AZƏRBAYCANIN QAZANDIĞI UĞURLARIN TƏSDİQİDİR

Bəli, təbrik məktublarının ardıcıl olaraq gəlməsi həm də dünya liderlərinin Prezident İlham Əliyevin şəxsinə olan hörmətdən gedir. Çünki bu gün Cənab Prezidentimizin rəhbərliyi ilə Azərbaycan dünyada çəkisi və rolu artan bir ölkəyə çevrilib. Ölkəmiz beynəlxalq aləmdə etibarlı tərəfdaş mövqeyini daha da möhkəmləndirdi, bölgədə yaratdığı yeni reallıqlarla dünya siyasətinə təsir imkanlarını artırdı. Azərbaycan bu gün dünyaya istər tolerantlıq, istər multikultural dəyərlərin inkişafı, istərsə də iqtisadi tərəqqi baxımından yeni model təqdim edir. Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevə ünvanlanan təbrik məktublarının hər birində qeyd edilən fikirlər, faktlar da Azərbaycan dövlətinin və xalqının əldə etdiyi uğurların təsdiqidir. Azərbaycanın beynəlxalq gündəlikdəki mühüm məsələlərin həllində fəal rolu önə çəkilərək qarşıdakı dövrün prioritetlərinin müəyyənləşdirilməsində yeni yanaşma özünü qabarıq şəkildə büruzə verir. Təbrik məktublarının hər birində strateji tərəfdaşlığın və səmərəli əməkdaşlığın möhkəmləndirilməsinə böyük inam ifadə edilir.

### ABŞ PREZİDENTİ AZƏRBAYCANLA ƏMƏKDAŞLIĞI YÜKSƏK QİYMƏTLƏNDİRİR

Məsələn, ABŞ Prezidenti Cozef Bayden Bakı Enerji Həftəsi ilə bağlı dövlətimizin başçısına ünvanladığı təbrik məktubunda Azərbaycanın enerji sahəsində gördüyü işləri yüksək qiymətləndirib. Həmçinin bu gün Avropanın enerji təhlükəsizliyində ölkəmizin böyük rolu olduğunu qeyd edib. ABŞ Prezidenti bundan əvvəl Müstəqillik Günü münasibətilə ünvanladığı təbrik məktubunda da Azərbaycanla əməkdaşlığın yüksək dəyərləndirildiyini qeyd edərək regionda yaratdığımız yeni reallığı dəstəklədiyini bildirib: "Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası arasında qurulmuş 30 illik diplomatik münasibətlər dövründə biz transmilli təhlükələrlə mübarizə, enerji təhlükəsizliyinin gücləndirilməsi, ikitərəfli ticarət və sərmayələrin təşviqi məsələlərində güclü tərəfdaş olmuşuq. Bakıda Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinə ev sahibliyi etdiyiniz vaxtda Sizi əmin etmək istəyirəm ki, Amerika Birləşmiş Ştatları Azərbaycanın sadiq tərəfdaşı olmaqda davam edir".

Həmçinin məktubda o da bildirilir ki, Azərbaycan həm də regional və qlobal bazarların sabitləşdirilməsi baxımından trans-Xəzər əməkdaşlığının nəhəng potensialının reallaşdırılmasında mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, Azərbaycan Cənub Qaz Dəhlizi vasitəsilə və Ukrayna üçün mühüm olan yanacağı təchiz etməklə də Avropanın enerji təhlükəsizliyinin sabitləşdirilməsinə kömək etməkdə həlledici rol oynayır.

### PREZİDENT İLHAM ƏLİYEV: "BİRLƏŞMİŞ ŞTATLAR VƏ BİRLƏŞMİŞ KRALLIQ ENERJİ SİYASƏTİMİZİN BÜTÜN MƏRHƏLƏLƏRİNDƏ BİZƏ HƏR ZAMAN BÖYÜK DƏSTƏK VERİBLƏR"

Prezident İlham Əliyev Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimindəki çıxışında bildirib ki, biz Cənub Qaz Dəhlizinin komanda üzvləri, o cümlədən hökumətləri ilə fəal dialoqu davam etdirməliyik. Mən Cənub Qaz Dəhlizində iştirak edən ölkələrin - Türkiyənin, Gürcüstanın, Bolqarıstanın, Yunanıstanın, Albaniyanın, İtaliyanın hökumətlərinə fəal əməkdaşlıq etdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm."Hazırda yeni çağırışların və tələbatların olduğunu nəzərə alaraq, əlbəttə, biz artıq digər potensial istehlakçı ilə danışıqlar prosesindəyik. Lakin bunun üçün yalnız bizim səylər kifayət olmayacaq. Avropada infrastruktura, yeni interkonnektorların tikintisinə yatırımlar olmalıdır və yeni şərtlər üzərində razılıq əldə edilməlidir", - deyə dövlətimizin başçısı qeyd edib. Prezident diqqətə çatdırıb ki, Azərbaycan bu prosesin sürətləndirilməsi üçün əlindən gələni edəcək və bu, artıq başlayıb.

Birləşmiş Ştatların və Birləşmiş Krallığın hökumətlərinə də təşəkkürünü bildirən Azərbaycan Prezidenti deyib: "Onlar enerji siyasətimizin və fəaliyyətimizin bütün mərhələlərində bizə hər zaman böyük dəstək veriblər. Biz həmin böyük dəstəklə bu nəticələrə nail ola bildik. Mən, həmçinin beynəlxalq maliyyə təsisatlarına - Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, Asiya İnkişaf Bankına, Avropa İnvestisiya Bankına, Asiyanın İnfrastruktur və İnvestisiya Bankına, yeni Cənub Qaz Dəhlizini maliyyələşdirmiş bütün banklara təşəkkürümü bildirmək istəyirəm. Ümid edirəm ki, onlar, həmçinin bizim yeni planlarımızın həyata keçirilməsi, xüsusilə də Trans-Adriatik boru kəmərinin genişləndirilməsinə də dəstək verəcəklər. Bunun üçün tələb olunan siyasi iradə və potensial var". Göründüyü kimi, Azərbaycanın neft strategiyasının həyata keçirilməsini ilk gündən dəstəkləyən ölkələrdən biri də Amerika Birləşmiş Ştatları oldu. Bu illər ərzində neft və qaz ixracımızın həyata keçirilməsi üçün ərsəyə gətirdiyimiz marşrutlar bu gün daha çox əhəmiyyət kəsb edir. Qərbin sanksiyalarının tətbiqi nəticəsində Rusiyanın neftindən və qazından imtina edilməsi istiqamətində addımlar atıldığı bir zamanda Azərbaycanın enerji ehtiyatları əvəzsiz rol almaqdadır. Ümumiyyətlə, Azərbaycanın iştirak etdiyi bütün layihələr nəinki ölkəmiz üçün, həm də dünya iqtisadiyyatının sabitləşməsində böyük rol oynayır. Bir sözlə, ABŞ Prezidentinin dövlətimizin başçısına göndərdiyi təbrik məktubları ölkəmizin apardığı siyasəti dəstəklədiyinin göstəricisidir. Göründüyü kimi, ölkəmizin artan nüfuzunun göstəricisi kimi dəyərləndirilən dünya liderlərinin təbriklərində bu əminlik vurğulanır ki, qarşıdakı illərdə Qarabağ və işğaldan azad edilən torpaqlarımız da regionun tərəqqisində iştirak edəcək. Azərbaycanın bu əraziləri bundan sonra sülh, anlaşma, rifah, əmin-amanlığın təminatçısı kimi çıxış edəcək. Yekun olaraq, 28 May - Müstəqillik Günü münasibətilə ünvanlanan təbrik məktublarında xüsusi qeyd edilən sosial-iqtisadi, elmi-texniki və digər sahələrdə nəzərəçarpan uğurlarımız möhkəm təmələ əsaslanan siyasətin təntənəsidir. Bütövlükdə Prezident İlham Əliyevə ünvanlanan dünya liderlərinin məktub və zəngləri dövlətimizin başçısının həyata keçirdiyi siyasətin dünyanın aparıcı gücləri tərəfindən ehtiramla qarşılanmasının və qəbul edilməsinin göstəricisidir. Eyni zamanda, bütün bunlar Azərbaycanın regionda və dünyada nüfuzlu söz sahibi olan dövlətlərdən biri kimi çıxış etməsini təsdiq edən mühüm siyasi faktordur.

**R. HÜSEYNOVA**

# "İqtidar-müxalifət siyasi dialoqu nəticəsində sağlam siyasi mühit yaranıb"

*Prezident Administrasiyasında Azərbaycan Ümid Partiyasının sədri ilə görüş keçirilib*



**Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə həyata keçirilən siyasi dialoq prosesi çərçivəsində siyasi partiya rəhbərləri ilə təşkil olunan görüşlər davam etdirilir. Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin növbəti görüşü iyunun 2-də Azərbaycan Ümid Partiyasının sədri İqbal Ağazadə ilə keçirilib.**

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüş çərçivəsində şöbə müdiri Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan islahatlar, iqtidar-müxalifət siyasi dialoqu və bunun nəticəsi olaraq yaranan sağlam siyasi mühit, həmçinin "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi, məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 27 may tarixli Sərəncamı, İkinci Qarabağ müharibəsində qazanılmış Qələbə, Böyük Qayıdış çərçivəsində görülən işlər və sürətlə reallaşdırılan layihələr, yeni geosiyasi reallıqlar, Azərbaycanın beynəlxalq arenada artan nüfuzu və bir sıra digər aktual məsələlər haqqında fikirlərini bildirib.

Görüşdə Azərbaycan-Türkiyə münasibətləri xüsusi olaraq müzakirə edilib. Qardaş Türkiyə ilə münasibətlərin yüksələn xətlə inkişaf etdiyini vurğulayan Administrasiya rəsmisi Şuşa Bəyannaməsinin tarixi əhəmiyyətini qeyd edib. Ölkəmizdə keçirilmiş "TEKNOFEST Azərbaycan" festivalında iştirak etmək məqsədilə Türkiyə Prezidentinin Azərbaycana səfərini əlamətdar hal kimi dəyərləndirilən şöbə müdiri tədbirdə hər iki ölkənin rəhbərləri tərəfindən səsləndirilmiş siyasi mesajların qardaşlıq münasibətlərinin əbədiləşdirilməsinə xidmət etdiyini bildirib.

Şöbə müdiri ölkəmizdə cərəyan edən siyasi prosesləri şərh edərkən, siyasi partiyaların artan ictimai nüfuzunu xüsusi vurğulayıb. Bu mənada siyasi partiyaların maarifləndirici funksiyasını qeyd edən Administrasiya rəsmisi Azərbaycan haqqında obyektiv məlumatların yayılmasında və onların beynəlxalq təşkilatlara çatdırılmasında siyasi partiyaların daha fəal mövqe sərgiləmələrini arzulayıb.

Partiya sədri öz növbəsində ölkənin demokratik münasibətlər təcrübəsinin zənginləşməsinə xidmət edən siyasi dialoqla bağlı təşəbbüsləri dəstəklədiyini qeyd edib və bu cür təşəbbüslərin davamlı olmasının əhəmiyyətini vurğulayıb. İqbal Ağazadə ölkəmizin Türkiyə ilə münasibətlərini yüksək dəyərləndirib və işğaldan azad olunmuş ərazilərin bərpasında yerli şirkətlərlə yanaşı, xarici, o cümlədən Türkiyə şirkətlərinin iştirakını xüsusilə təqdir edib.

Görüş çərçivəsində aparılmış müzakirələrdə siyasi proseslərin iştirakçıları arasında etibarlı münasibətlərin qorunması məsələsinə də toxunulub. Belə ki, ölkəmizdə demokratik ənənələrin dərinləşməsi haqqında söhbət açan şöbə müdiri radikal müxalifət nümayəndələrinin sərt, qərəzli və inkarçı ritorikadan istifadə etməsinin bu proseslərə şüurlu şəkildə zərər vurmasına xidmət etdiyini vurğulayıb.

Görüşün sonunda Administrasiya rəsmisi əməkdaşlığa açıq və fəal mövqeyinə görə İqbal Ağazadəyə təşəkkürünü bildirib, onun sədrlik etdiyi siyasi partiyaya gələcək fəaliyyətində uğurlar arzulayıb.

# The New York Times: "Azərbaycan Qarabağ müharibəsində PUA-lardan uğurla istifadə edib"

*MÜHARİBƏ UĞURU*

2020-ci ilin sentyabrında Azərbaycanın torpaqlarını erməni işğalından azad etməsi və 44 günlük Zəfər yolunda qazanılan şanlı qələbəsi bu gün də beynəlxalq dairələrdə, həmçinin nüfuzu media qurumlarında geniş şəkildə şərh olunmaqdadır. Xüsusilə, 5-ci nəsil hərbi sənaye texnologiyalarının, əsasən də PUA-ların uğurlu istifadəsi heyrət doğurmaqdadır. SİA xəbər verir ki, ABŞ-ın nüfuzlu The New York Times nəşri mövzu ilə bağlı məqalə ilə çıxış edib.

Məqalədə vurğulanır ki, PUA-ların ikinci Qarabağ müharibəsində hərbi əməliyyatlar zamanı istifadə edilməsi dünyanın hərb tarixi üçün yenilik və uğurlu nümunə oldu. SİTAT: "Həmin vaxt Azərbaycan PUA-ları yüzlərlə erməni tanklarını, hərbi sursatlarını və zirehli texnika vasitələrini məhv etdi. Azərbaycanın Müdafiə Nazirliyi döyüş meydanlarında PUA-ları effektli şəkildə istifadə etməklə yanaşı, öz rəsmi saytına onların fəaliyyətlərini yerləşdirirdi".




New York Times onu da qeyd edib ki, PUA-lar Azərbaycanın Ermənistan üzərindəki qələbəsində əhəmiyyətli rol oynadı. "İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan PUA-ları kəşfiyyatın aparılması, artilleriya və raket bölmələrinin yerləşdikləri əraziləri aşkarlayaraq hədəflərini aşkarlanması, operativ vəziyyətin tam nəzarətə götürülməsi yönündə uğurla istifadə ediliblər", deyə yazılan məqalədə o da bildirilir ki, buna nümunə olaraq dronlar havadan müdafiə sistemləri haqqında məlumatları əldə edir və onların koordinatlarını yüksək səviyyədə, dəqiqliklə müəyyənləşdirirdi. Amerika nəşri buna misal kimi erməni silahlı qüvvələrinin Xocavənddə yerləşdirdikləri raket sistemlərinin PUA-lar vasitəsi ilə məhvini qeyd edib. "Azərbaycan PUA-ları effektivliklə istifadə edərək operativ və strateji səviyyədə onlardan taktiki silah olaraq yararlanıb və döyüş meydanında böyük uğurlara imza atıb.

***Rövşən***

ŞƏRH+AKTUAL

# Rusiyalı politoloq Ermənistandakı vəziyyəti şərh etdi: qənaətbəxş deyil

*Aleksandr Şatilov: "Avropalıların İrəvana təsir imkanları kifayət qədərdir"*

**Ermənistanda daxili siyasi vəziyyətin bu və ya digər şəkillərdə dəyişməsi bu ölkənin müttəfiqi olan Rusiyada da maraqla izlənilir. Xüsusilə, Qarabağ üzrə danışıqlar mövzusunda Moskvanın Brüsselə qısqanclığı da hiss olunmaqdadır. Rusiya politoloqlarının bu məcradakı fikirləri də bir sıra hallarda maraq doğurur. Məhz belə bir məqamda Ermənistandakı iqtidarın Qərbə bağlılığı və eyni zamanda, Rusiya ilə müttəfiqliyi reallığının bir araya sığışmadığı açıq-aydın görünür və bunu rusiyalı politoloqlar da öz münasibətlərində qeyd edirlər.**

"Paşinyan hazırda odla su arasında qalıb". SİA xəbər verir ki, bunu rusdilli caliber saytına Rusiya politoloqu, Rusiya Federasiyası hökuməti yanında Maliyyə universitetinin sosiologiya və politologiya fakültəsinin dekanı Aleksandr Şatilov deyib. Onun sözlərinə görə, Ermənistanın baş naziri bir tərəfdən Azərbaycanın və Avropa İttifaqı Şurasının xətti ilə, digər tərəfdən isə müxalifət və ictimai rəy tərəfindən sıxışdırılmaqdadır.

"Paşinyan komandası Qarabağ məsələsi ətrafında aparılan müzakirə prosesini ya maksimal şəkildə uzatmağa çalışır, ya da güzəştlərə getməyə məcbur olacaq"

Belə ki, Qarabağın itirilməsi kütləvi iğtişaşlara, qanunsuzluqlara səbəb olmaqdadır. "Ona görə də hesab edirəm ki, Paşinyan komandası Qarabağ məsələsi ətrafında aparılan müzakirə prosesini ya maksimal şəkildə uzatmağa çalışır, ya da güzəştlərə getməyə məcbur olacaq", deyə rusiyalı siyasətçi bildirib.



**"Erməni müxalifətinin etirazları hakimiyyətin mövqelərinə təsir göstərir və bu da rejimin dəyişilməsi yönündə hipotetik təhlükə yaradır"**

Şatilov onu da qeyd edib ki, Avropa vasitəçiliyi Paşinyanın siyasətinə ciddi təsirlərini göstərir. "Nəzərə alsaq ki, Paşinyan və onun arxasında dayanan elit klanlar bir vaxtlar Qərblə münasibətləri prioritetləri istiqamət hesab edirdilərsə, indi düşünürəm ki, avropalıların İrəvana təsir rıçaqları kifayət qədər artıb", deyən rusiyalı politoloq ehtimal edir ki, erməni tərəfi Qarabağ məsələsində diferensiasiyaya (dondurmağa-R.R.) cəhd edir və bu məsələni sonraya saxlamağa çalışır: "Azərbaycan tərəfi isə öz növbəsində uğurlu konyunkturadan istifadə etməklə formatı kompleks şəklində lobbiləşdirəcək və bu vasitə ilə iki dovşanı vurmağa çalışacaq".

Politoloqun sözlərinə görə, erməni müxalifətinin Paşinyana qarşı etiraz aksiyaları danışıqlar prosesinə təsirlərini göstərir: "Erməni müxalifətinin etirazları hakimiyyətin mövqelərinə təsir göstərir və bu da rejimin dəyişilməsi yönündə hipotetik təhlükə yaradır. Paşinyan Qərbə sərf edir, Rusiyanın başı başqa istiqamətdə qarışıb və hazırkı məqam Ermənistana yalnız "növbətçi ruhi dəstək" göstərir".

**"Rusiya üçün Türkiyə ilə razılaşmaq daha asandır nəinki avropalı bürokratlarla"**

Şatilov Rusiya XİN-nin rəsmi nümayəndəsi Mariya Zaxarovanın bəyanatına da münasibət bildirib. Belə ki, Zaxarova bir müddət əvvəl bəyan etmişdi ki, Moskva yüksək səviyyəli üçtərəfli razılaşmaların realizəsi istiqamətində Aİ-nin inadkar cəhdlərini müşahidə edir, eləcə də ümid bəsləyir ki, Brüssel geosiyasi oyunlar oynamayacaq və onların realizəsinə köməkliyini göstərəcək.

Politoloq həmçinin qeyd edib ki, bu, Rusiyanın danışıqlar prosesinə fəal müdaxilə etmək istəyindən daha çox, Ukrayna yolunda Moskvaya qarşı çıxan Aİ-yə qarşı növbəti hücumdur: "Baxmayaraq ki, Rusiya rəhbərliyi danışıqlar prosesinin Türkiyənin daha çox iştirakı ilə baş tutacağını gözləyirdi, çünki onun üçün ideoloji cəhətdən Türkiyə ilə razılaşmaq daha asandır nəinki avropalı bürokratlarla".

Şatilov sonda deyib ki, hazırkı məqamda İrəvanda hakimiyyət dəyişikliyi üçün tələbat yoxdur: "Hətta müxalifət Paşinyanı devirməyə müvəffəq olsa belə mövcud zamanda geosiyasi vəziyyət onsuz da Ermənistan üçün qənaətbəxş deyil".

***R. Nurəddinoğlu***

# Xilaskarlıq missiyasının başlanğıc nöqtəsi

## 1993-cü il 4 iyun hadisələrindən 29 il ötür

***Bir əsrdə iki dəfə istiqlaliyyətə qovuşan Azərbaycanın müstəqillik taleyi çətinliklərlə dolu olub. 1918-ci ildə yaradılan ADR-in varlığına bolşevik Rusiyasının işğalı son qoydusa, 1991-ci ildə ikinci dəfə azadlığına qovuşmuş ölkəmizi həm xaricdən, həm də daxildən təhlükə öz ağuşuna almışdı. Bu, azmış kimi, Dağlıq Qarabağda SSRİ rəhbərliyinin təhriki ilə yaradılan münaqişə Azərbaycan xalqını növbəti bir sınaqla üz-üzə qoymuşdu. Az keçmədi ki, bu problemlərin sırasına daha biri əlavə olundu: hakimiyyət böhranı...***

1992-ci ilin mayında hakimiyyətə yiyələnmiş AXC-Müsavat cütlüyünün səriştəsizliyi addımbaşı öz bəlalı nəticəsini büruzə verirdi. Məhz bunun sayəsində ictimai həyatın bütün sahələrində xaos, hərc-mərclik baş alıb gedirdi. Gənc respublikada hakimiyyətə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında qızğın mübarizə gedirdi. Məntiqsiz, bir-birini təkzib edən fərmanlar, özbaşınalıqlar hakimiyyətdə olanların ölkəni idarə edə bilməyəcəyini göstərirdi. Problemlər getdikcə artırdı. Bəzən hadisələri cəmiyyətə başqa ad altında təqdim edirlər. Amma belə deyil. Belə ki, hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün səriştəsizliyi, idarəetmənin bilinməməsi nəticəsində ölkə xaos vəziyyətinə gətirilmişdi. Bir tərəfdən ərazilərimizin işğal olunması, digər tərəfdən isə hər bir siyasi partiyanın özünün silahlı dəstəsinin olması, ayrı-ayrı şəxslərin ordunun müxtəlif qruplarına rəhbərlik etməsi, nizami ordunun olmaması, dövlət idarəçiliyində səriştəsi olmayan insanların rəhbərliyə gətirilməsi, o cümlədən yerli icra hakimiyyətlərində fəaliyyət göstərməsi hər şeyin bərbad hala düşdüyünü göstərirdi. Kim meydanda daha çox qışqırmışdısa, onu hansısa rayona icra başçısı qoymuşdular. O baxımdan da idarəçilikdən xəbərləri yox idi. Ölkədə vəziyyət getdikcə çətinləşirdi. Azərbaycan özünün milli və dövlət müstəqilliyini əldə etdikdən sonra həm ölkə daxilində cərəyan edən proseslər, həm də xaricdən olan təzyiqlər ölkənin dövlət müstəqilliyinə çox ciddi təhlükə yaratmışdı. AXC-Müsavat hakimiyyəti bu təhlükələrin sovuşdurulması istiqamətində lazımi tədbirləri görmək iqtidarında deyildi. Təbii ki, bütün bunlara görə də, Azərbaycan vətəndaşları həm ölkəmizin müstəqilliyinin başının üstünü almış təhlükəni sovuşdurmaqdan ötrü, həm də digər təhdidlərin qarşısının alınması üçün real addımların atılmasını gözləyirdilər.









### VƏTƏNDAŞ MÜHARİBƏSİ TƏHLÜKƏSİ İLƏ ÜZ-ÜZƏ

Belə bir ağır məqamda Azərbaycan hakimiyyəti vəziyyətin daha da kritikləşməsinə yol açan məntiqsiz qərarlar verməkdə davam edir, ölkəni, demək olar ki, zorla vətəndaş qarşıdurmasına sürükləyirdi. 1993-cü il iyunun 4-də sabiq korpus komandiri, AXC hakimiyyətinin Qarabağ üzrə xüsusi nümayəndəsi Surət Hüseynovun rəhbərlik etdiyi və Gəncədə yerləşən 709-cu briqadanın ləğvi ilə bağlı əmr imzalandı. O zamankı müdafiə naziri Dadaş Rzayevin imzaladığı bu əmrə və təhvil-təslim barədə qərara tabe olmayan Surət Hüseynov isə tabeçiliyində olan hərbi hissənin əsgərlərinin Bakıya doğru istiqamət götürməsi əmrini verdi. 709-cu briqadanı tərksilah etmək üçün Gəncəyə göndərilən Milli Qvardiya hissələri ilə Surət Hüseynovun rəhbərliyi altında olan silahlı birlik arasında döyüş oldu. Artıq ölkə vətəndaş müharibəsinin astanasında idi. Məhz belə bir çətin zamanda xalqın diqqəti Naxçıvana yönəlmişdi. Çünki düşmən blokadasında belə muxtar respublikanı qorumağı bacaran, Azərbaycanın xilaskarı Heydər Əliyev dövlətin yeganə nicat yolu idi. Ona görə də Vətənin bu ağır günündə xalq Azərbaycanın görkəmli oğlu Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Ulu Öndər Heydər Əliyev xalqın və respublikanın o zamankı hakim dairələrinin təkidli dəvətini qəbul edib, iyunun 9-da Bakıya gəldi, çox az zamanda Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ala bildi.

Sonralar Ulu Öndər bu məsələ ilə bağlı bildiririd: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycanın ərazisinin, demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

### ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN YENİDƏN İKİNCİ DƏFƏ SİYASİ HAKİMİYYƏTƏ QAYIDIŞI İLƏ MÜSTƏQİLLİYİMİZ ƏBƏDİ OLDU

Ulu Öndər Heydər Əliyev dövlətin xilaskarı olmaqla yanaşı, həm də millətinin taleyinin xilaskarıdır. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycan bu gün öz inkişafının ən sürətli dövrünü yaşayır. Vətəndaş cəmiyyəti institutlarının hələ formalaşmadığı, üstəlik, xarici işğala məruz qalan ölkəni yalnız və yalnız Ümummilli Liderimiz Heydər Əliyev xilas edə bilərdi və etdi də. Bu gün Ulu Öndər Heydər Əliyev dühasının bəhrəsi olan müstəqil Azərbaycan dövlətinin inkişafı millət-dövlət tandeminin üzərində qurulduğu üçün sarsılmazdır. Məhz Ulu Öndər Heydər Əliyevin siyasi varisi Azərbaycan Prezidenti İlham Əliyevin apardığı "Dəmir yumruq" siyasəti 30 il düşmən əsarətində olan torpaqlarımız 44 gün davam edən İkinci Vətən Müharibəsini Qələbə zəfəri ilə başa vurdu, ərazi bütgvlüyümüz bərpa olundu, haqq, ədalət qalib gəldi. Məhz Ulu Öndər Heydər Əliyevin yenidən ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə müstəqilliyimiz əbədi oldu və bu gün Azərbaycan 104 illiyini qeyd etdiyimiz Cümhuriyyətimizin taleyini yaşamadı. Azərbaycanın tarixinə Zəfər Gününün yazılması bu yolun uğurlu davamının, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ata vəsiyyətini yerinə yetirdiyinin təqdimatıdır. Dövlət başçısı 8 noyabrda Qarabağın döyünən ürəyi, musiqi beşiyimiz Şuşanın işğaldan azad edilməsi müjdəsini Şəhidlər xiyabanından xalqımıza çatdırarkən bildirmişdir: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

Xalqımız əmindir ki, müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək.

***RƏFİQƏ KAMALQIZI***

# Qarşılıqlı faydalı əməkdaşlığa söykənən Azərbaycan-ABŞ münasibətləri

Müasir dünyada Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz uğurlu xarici siyasət xəttini davam etdirir, beynəlxalq aləmdəki mövqeyini artıraraq, bu münasibətləri möhkəmlətməyə önəm verir. Dövlət başçısı xarici siyasət məsələlərini daim diqqət mərkəzində saxlayaraq, diplomatiyamız qarşısında duran prioritet vəzifələri müəyyənləşdirərək, onların planlı və ardıcıl surətdə həyata keçirilməsini təmin edir. Bu münasibətlər siyasi, iqtisadi, mədəni, humanitar, hərbi və s. sahələri əhatə edərək, çoxşaxəli xarakter daşıyır və Azərbaycanın maraqlarının daha dolğun ifadə olunmasına, beynəlxalq aləmdə aparıcı rol oynayan dövlətlərlə qarşılıqlı əlaqələrin möhkəmlənməsinə mühüm təsir göstərir. Azərbaycan bir çox dünya dövlətləri ilə yanaşı Amerika Birləşmiş Ştatları ilə müstəqil dövlət olaraq diplomatik münasibətlər qurub. Bu münasibətlərin qurulmasından artıq 30 il ötür. Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanladığı məktub əlbəttə ki, qarşılıqlı münasibətlərin təzahürüdür. Məktubda deyildiyi kimi, "Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası arasında qurulmuş 30 illik diplomatik münasibətlər dövründə biz transmilli təhlükələrlə mübarizə, enerji təhlükəsizliyinin gücləndirilməsi, ikitərəfli ticarət və sərmayələrin təşviqi məsələlərində güclü tərəfdaş olmuşuq".

1993-cü ildən etibarən yüksək səviyyəli qarşılıqlı səfərlər və beynəlxalq təşkilatlar çərçivəsində səfərlər və görüşlər bu əlaqələrin möhkəmlənməsində mühüm rol oynadı. Belə ki, Ulu Öndər Heydər Əliyevin 1997-ci il, eləcə də 2003-cü il tarixi səfərləri bu münasibətlərin təməlini qoymuşdur. Daha sonra Ulu Öndərin siyasi kursunun davamçısı İlham Əliyevin 2006-cı ilin 25-28 aprel tarixlərində AVŞ-a səfəri müasibətlərin inkişafına təkan oldu.

Ölkələr tərəfindən Avropanın enerji təhlükəsizliyini təşviq etmək, ikitərəfli ticarət və sərmayələri genişləndirmək, terrorizm və transmilli təhdidlərlə mübarizə aparmaq üçün birlikdə tədbirlər həyata keçirilib. Birləşmiş Ştatlar Azərbaycanda demokratiyanın möhkəmləndirilməsinə və iqtisadiyyatın şaxələndirilməsinə təkan olmuşdur.



### AZƏRBAYCANIN İŞTİRAK ETDİYİ BÜTÜN LAYİHƏLƏR DÜNYA İQTİSADİYYATININ SABİTLƏŞMƏSİNDƏ BÖYÜK ROL OYNAYIR

Bu gün bildiyimiz kimi, Azərbaycanın paytaxtı Bakı Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinə ev sahibliyi edir. ABŞ Prezidenti Co Bayden dövlətimizin başçısına ünvanladığı məktubunda Azərbaycanın enerji sahəsində gördüyü işləri yüksək qiymətləndirib. Həmçinin bu gün Avropanın enerji təhlükəsizliyində ölkəmizin böyük rolu olduğunu qeyd edib. Etiraf edək ki, Bakı region üçün əhəmiyyəti artmaqda olan tədbirlərin keçirildiyi mərkəzdir. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində və qazla təmin olunmasının şaxələndirilməsində rolu müstəsnadır. Bakıda ənənəvi keçirilən Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin önəmi energetika sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsinə töhfədir. "Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinə ev sahibliyi etdiyiniz vaxtda Sizi əmin etmək istəyirəm ki, Amerika Birləşmiş Ştatları Azərbaycanın sadiq tərəfdaşı olmaqda davam edir", - məktubda qeyd olunur. Qeyd edək ki, Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlər müxtəlif sahələrdə uğurla inkişaf edir. Qlobal enerji layihələrinin həyata keçirilməsində, o cümlədən Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşdırılmasında ABŞ hökumətinin Azərbaycana verdiyi daimi dəstək təqdirəlayiqdir. Azərbaycanın iştirak etdiyi bütün layihələr nəinki ölkəmiz üçün, həm də dünya iqtisadiyyatının sabitləşməsində böyük rol oynayır. Məktubda qeyd olunur ki, bütün dünyada enerji təhlükəsizliyinin təmin olunmasında mühüm dönüş nöqtəsini yaşadığımız bir dövrdə biz həm də təmiz enerjiyə keçidlə bağlı uzunmüddətli öhdəliklərimizi təmin etmək məqsədilə zəruri investisiya və dəyişikliklər edirik: "Enerji təhlükəsizliyi ilə bağlı məqsədlərimizə çatmaq üçün şaxələndirmə heç vaxt olmadığı qədər əhəmiyyətlidir və Azərbaycan bu məqsədə nail olmaq üçün regional səylərdə əsas rol oynamışdır. Azərbaycan həm də regional və qlobal bazarların sabitləşdirilməsi baxımından trans-Xəzər əməkdaşlığının nəhəng potensialının reallaşdırılmasında mühüm əhəmiyyətə malikdir".

### AZƏRBAYCAN AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ HƏLLEDİCİ ROL OYNAYIR

Bütün bunlarla yanaşı, Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenin Cənab İlham Əliyevə ünvanladığı məktubda qeyd olunur ki, Azərbaycan Cənub Qaz Dəhlizi vasitəsilə və Ukrayna üçün mühüm olan yanacağı təchiz etməklə də Avropanın enerji təhlükəsizliyinin sabitləşdirilməsinə kömək etməkdə həlledici rol oynayır. Bildiyimiz kimi, MDB məkanında Azərbaycanın əsas strateji müttəfiqlərindən biri Ukraynadır. İki ölkə arasındakı strateji müttəfiqlik münasibətləri durmadan möhkəmlənir və genişlənir. İnkişaf edən qarşılıqlı münasibətlər nəticəsində Ukrayna Azərbaycanın strateji tərəfdaşına çevrilib. Ukraynadakı vəziyyətlə əlaqədar ölkə rəhbərliyinin tapşırığı ilə Azərbaycan tərəfindən Ukrayna xalqına humanitar yardım məqsədilə təcili və təxirəsalınmaz hallarda tibbi yardımın göstərilməsi üçün dərman vasitələri və tibbi sərf, eləcə də ərzaq və qida məhsullarından ibarət yardımın edilməsi dövlətlərarası mövcud münasibətlərə söykənir. Azərbaycanla Ukrayna arasındakı sıx dostluq münasibətləri intensiv olaraq inkişaf edir. Bu münasibətlər təkcə strateji siyasi və iqtisadi tərəfdaşlıqla deyil, eyni zamanda, zəngin tarixi köklərlə də bağlıdır.

### XƏZƏR DƏNİZİNİN KARBOHİDROGEN EHTİYATLARININ DÜNYA BAZARINA SƏRBƏST ÇIXIŞI TƏMİN EDİLİB

İki ölkə arasındakı iqtisadi əlaqələr, ABŞ-ın Xəzər bölgəsi və Cənubi Qafqazda Azərbaycanın həyata keçirdiyi transmilli layihələrdə iştirakı intensiv xarakter daşımışdır. Bu istiqamətdə Amerikanın bir tərəfdən öz şirkətləri vasitəsilə Xəzər dənizinin karbohidrogen ehtiyatlarının mənimsənilməsi və istehsalı, digər tərəfdən bu ehtiyatların dünya bazarına sərbəst çıxışını təmin etmək məqsədilə Bakı-Tbilisi-Ceyhan əsas neft və Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərlərinin çəkilməsindəki xüsusi rolunu qeyd etmək lazımdır. Bundan başqa, ABŞ Şərq-Qərb nəqliyyat-kommunikasiya dəhlizininin (TRASEKA layihəsi) reallaşmasında, Azərbaycanda struktur islahatlarının və iqtisadi liberallaşmanın həyata keçirilməsində də Avropa Birliyi ilə çiyin-çiyinə çalışmışdır. Cənab Prezidentə ünvanlanan məktubda belə deyilir: "Mən Azərbaycanın tam potensialına nail olunması, o cümlədən şaxələndirilmiş iqtisadiyyatın təşviqi, bərpa olunan enerji mənbələrinə investisiyaların yatırılması ilə iqlim dəyişikliyinə qarşı mübarizədə qlobal məqsədlərə töhfənin verilməsi, qanunun aliliyi və hesabatlılığın möhkəmləndirilməsi, Azərbaycan xalqının yaşayış standartlarının yüksəldilməsi istiqamətində Sizin davamlı addımlarınızı alqışlayıram".

Dünya siyasətinin aparıcı dövlətlərindən olan ABŞ-la 30 il ərzində Azərbaycanın qurduğu münasibətlər qarşılıqlı faydalı əməkdaşlığa söykənib ki, bu da ölkəmizin diplomatiya sahəsindəki uğurudur. Məktubda mövcud vəziyyəti nəzərə alan C.Bayden gələcəkdə də davamlı tərəfdaşlıq və əməkdaşlığa sadiqliyini bildirib. İki ölkə arasındakı ikitərəfli və çoxtərəfli iqtisadi əməkdaşlıq, transmilli layihələrin reallaşması münasibətlərin davamlı olmasına dəlalət edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

---

# "Erməni müxalifəti Paşinyanı devirib Azərbaycanla sülh danışıqlarını pozmaq istəyir"

**"Ermənistan tərəfinin Azərbaycanla danışıqlarda sərgilədiyi ikili mövqe bir tərəfdən bu ölkənin daxili ictimai siyasi durumu, digər tərəfdən Paşinyan iqtidarına olan geosiyasi təzyiqlərlə bağlıdır. Erməni müxalifətinin təşəbbüsü və çağırışı ilə keçirilən etiraz aksiyalarına qoşulanların sayı durmadan artır". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.**



Onun sözlərinə görə, erməni müxalifəti Paşinyanı Azərbaycanla danışıqlarda erməni xalqının, xüsusən Qarabağ ermənilərinin maraqlarına xəyanətdə günahlandırır: "Müharibədəki məğlubiyyətin də səbəblərini Paşinyanın ayağına yazmaqla müxalifət bilərəkdən cəmiyyətdə sosial və siyasi gərginliyin yüksəlməsinə, Paşinyana ünvanlanmış ittihamlarla onun istefaya getməsinə nail olmaq istəyir. Ermənistanda müxalifətin təşkil etdiyi aksiyalara münasibətdə Paşinyanın tərəddüd etməsi, aksiyalara qarşı yumşaq güc mövqeyində durması hazırda baş nazirin xeyrinə işləmir. Paşinyanla müqayisədə Azərbaycanla münasibətlərin perspektiv planlarına malik olmayan müxalifət ancaq bir məqsəd güdür, Paşinyanı devirib Azərbaycanla sülh danışıqları ətrafında mövqelərdən geri çəkilmək. İstisna deyil ki, müxalifət həm də onun hərəkətlərini koordinasiya edən məlum geosiyasi qütbün sifarişlərini yerinə yetirir. Müxalifət gözəl anlayır ki, Paşinyanı indi devirə bilməsə onun hakimiyyətə gəlmə ehtimali əhəmiyyətli dərəcədə zəifləyəcək. Zira Azərbaycanla sərhədlərin dəqiqləşdirilməsi məsələsi həll olunduqdan, bölgədə nəqliyyat kommunikasiya dəhlizləri ilə bağlı Moskva və Brüssel görüşlərində müzakirə edilən məsələlər ətrafında razılıqlar əldə edildikdən sonra perspektivdə sülh müqaviləsinin imzalanması problem olmayacaq, bu isə Ermənistanın iqtisadi blokadadan çıxması, bölgə ilə bağlı geoiqtisadi layihələrə qoşulma imkanlarının artması və s. olacaq ki, bu uğurları erməni cəmiyyəti Paşinyan və onun komandasının fəaliyyəti ilə bağlayacaq. Odur ki, Paşinyana yönəl təzyiqlər yüksələn xətlə artmaqdadır. Beləliklə, Paşinyan ilk baxışda özü üçün daha əlverişli şərtlər və münasib şərait kontekstində danışıqlara getmək məqsədilə vaxt əldə etmək istəyir. Hazırda Ermənistanda iradəsiz iqtidar və kifayət qədər sosial dəstəyə malik olmayan müxalifətin qarşıdurmasında isə hansı tərəfin qalib gəlməsi tərəflərin edə biləcəkləri taktiki gedişlərdən asılı olacaq".

***Gülyana***

---

# "Bu, Azərbaycanın tanınmasına və daha çox turist axınına səbəb olur"

*"Bildiyimiz kimi, "Formula 1" yarışı dünyaca çox geniş auditoriyaya malik yarışlardan biridir". Bu sözləri SİA-ya açıqlamasında Avropa çempionu Əliabbas Rzazadə deyib. Onun sözlərinə görə, bu yarışa Azərbaycanın ev sahibliyi etməsinin ölkəmiz üçün əhəmiyyəti ondan ibarətdir ki, ölkəmiz yarışlara necə yüksək səviyyədə təşkil edildiyini gələn turistlərə göstərir: "Bu yarışları izləməyə gələn turistlər ölkəmizin mədəniyyəti ilə tanış olur, gəzməli görməli yerlərə gedir, tarixi abidələrimiz haqqında maraqlı məlumatlar turistlərin marağını daha çox cəlb edir. Beləliklə yarışı izləməyə gələn turistlər ölkəmizi tanıdıqca daha çox gəzmək daha çox maraqlı məlumat əldə etməyə çalışırlar. Bu da Azərbaycanın tanınmasına və daha çox turist axınına səbəb olur".*

***Arzu Qurbanlı***



# “Azərbaycan bundan sonra da möhtəşəm uğurları ilə diqqətdə olacaq”

**“Bu gün beynəlxalq və dövlətlərarası münasibətlərdə inam, etimad, etibarlılıq başlıca amildir. Bu faktı təkrarən də olsa qeyd etməliyik ki, Azərbaycan yerləşdiyi coğrafi məkana, malik olduğu təbii resurslara görə daim dünyanın diqqət və marağında olub. Lakin tarixə qısa nəzər saldıqda bu marağın ayrı-ayrı dövrlərdə fərqliliyinin şahidi olarıq. Müstəqilliyimizn ilk illərində ölkəmizdə xaosun, anarxiyanın özbaşınalığın mövcudluğu Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin, transmilli şirkətlərin tərəddüdlərinə səbəb olmuşdu. Lakin ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizdə yaradılan sabitlik bütün bu tərəddüdləri aradan qaldırdı.**

”Əsrin müqaviləsi”nin imzalanması Azərbaycana inamı və etimadı daha da artırdı. Bu proses sonrakı sazişlərin imzalanmasında özünü təsdiqlədi”. Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri. siyasi elmlər doktoru Vüqar Rəhimzadə ABŞ Prezidenti Cozef Baydenin Azərbaycan Prezidenti İlham Əliyevə məktubuna münasibət bildirərkən söyləyib.

Vüqar Rəhimzadə qeyd edib ki, ABŞ Azərbaycanı etibarlı tərəfdaş kimi qəbul edir, ölkəmizlə əlaqələrin müxtəlif istiqamətlərdə inkişafında maraqlı olduğunu bəyan edir: ”ABŞ Prezidentinin son iki məktubunda yer alan fikirlər bunu bir daha təsdiq edir. İstər 28 May-Müstəqillik Günü, istərsə də Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz sərgisinin açılışı münasibətilə dövlət başçısı İlham Əliyevə ünvanlanan məktublarda ABŞ-la ölkəmiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illik dövrünə nəzər salınır. Bu əminlik ifadə edilir ki, transmilli təhdidlərlə mübarizə, enerji təhlükəsizliyinin gücləndirilməsi, ikitərəfli ticarət və sərmayələrin təşviqi məsələlərində güclü tərəfdaş olmuşuq. Dövlət başçısı İlham Əliyev də öz növbəsində sərgidəki nitqində enerji siyasətimizin və fəaliyyətimizin bütün mərhələlərində Azərbaycana hər zaman böyük dəstək verən ABŞ hökumətinə təşəkkürünü ifadə etmişdir. Azərbaycanın dövlətləri, xalqları birləşdirən layihələrin təşəbbüskarı kimi çıxış etməsi və onların uğurlu sonluqla başa çatması üçün göstərdiyi səylər, ikitərəfli və çoxtərəfli əməkdaşlığa böyük önəm verməsi ABŞ hökuməti tərəfindən daim diqqətlə izlənilir. ABŞ Prezidentinin sözügedən məktubunda da bu məqamlar xüsusi qeyd edilir. Bildirilir ki, bütün dünyada enerji təhlükəsizliyinin təmin olunmasında mühüm dönüş nöqtəsini yaşadığımız bir dövrdə ABŞ həm də təmiz enerjiyə keçidlə bağlı uzunmüddətli öhdəliklərini yerinə yetirmək məqsədilə zəruri tədbirlər həyata keçirir. Bu gün enerji təhlükəsizliyi ilə bağlı məqsədlərə çatmaqda şaxələndirmə heç vaxt olmadığı qədər əhəmiyyətlidir və Azərbaycan bu məqsədə nail olmaq üçün regional səylərdə əsas rol oynamışdır. Azərbaycan həm də regional və qlobal bazaların sabitləşdirilməsi baxımından trans-Xəzər əməkdaşlığının nəhəng potensialının reallaşdırılmasında mühüm əhəmiyyətə malikdir. Azərbaycan, həmçinin



Cənub Qaz Dəhlizi vasitəsilə və Ukrayna üçün mühüm olan yanacağı təchiz etməklə də Avropanın enerji təhlükəsizliyinin sabitləşdirilməsinə kömək etməkdə həlledici rol oynayır.”

YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, ABŞ Prezidentinin məktubunda yer alan hər bir fikir Azərbaycanın ayrı-ayrı sahələrdə qazandığı uğurlara işıq salmaqla yanaşı, ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri rolunun təqdimatıdır: ”Təbii ki, bu uğurlara yol açan dövlətimizin düşünülmüş və məqsədyönlü müstəqil siyasətidir. Enerjiyə olan daxili tələbatını tam şəkildə ödəyən Azərbaycan dünyanın enerji təhlükəsizliyinə verdiyi töhfələri, gündəmə gətirdiyi yeni layihələri uğurlu icrası ilə dünyanın enerji xəritəsini yenidən tərtib edib. Çoxtərəfli əməkdaşlığın göstəricisi kimi Cənub Qaz Dəhlizinin 2020-ci ilin 31 dekabr tarixində tam şəkildə uğurla başa çatması, bu layihənin sonuncu tərkib hissəsi olan TAP-ın istifadəyə verilməsi həm ölkəmizin, həm də iştirakçı dövlətlərin iqtisadi və siyasi həyatında yeni mərhələnin əsasını qoydu. Dövlət başçısı İlham Əliyev 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılış mərasimindəki nitqində də Azərbaycanın artıq özünü etibarlı ölkə olaraq təsdiq etdiyini, öz öhdəliklərinə hörmətlə yanaşdığını təsdiqləyib. Xəzərin Azərbaycan sektorunda karbohidrogen ehtiyatların mənimsənilməsi və hasilatın pay bölgüsünə dair 1994-cü ildə xarici şirkətlərlə imzalanmış ilk sazişdən bu günə qədər müqavilələrdə bir sözün belə dəyişdirilmədiyini xüsusi vurğulayan ölkə Prezidenti bunu mövqeyimizin təzahürü, öhdəliklərimizə hörmətlə yanaşmağımızın təsdiqi kimi dəyərləndirərək tərəfdaşlarımızdan da öz öhdəliklərinə hörmət etməyi gözlədiyimizi bildirmişdir.”

Vüqar Rəhimzadə bildirib ki, ABŞ Prezidenti Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə davamlı uğurlara imza atmasından məmnunluğunu ifadə edərək dövlətimizin başçısının yürütdüyü siyasəti alqışlayır: ”Bu nöqteyi-nəzərdən belə bir əminlik də ifadə edilir ki, Amerika Birləşmiş Ştatları ölkəmizlə davamlı tərəfdaşlığa və əməkdaşlığa sadiqdir. Nəzərə alaq ki, tarixi Zəfərimizin fonunda regionda və dünyada yeni siyasi mənzərə formalaşıb, diktə edən tərəf kimi Azərbaycanın artan mövqeyi hər addımda özünü təsdiqləyir. Şübhə yoxdur ki, müstəqil siyasəti ilə bütün dünyada qalib Azərbaycan kimi tanınmasına yol açan dövlətimiz xarici siyasətinin prinsiplərinə sadiqliyi ilə bundan sonra da möhtəşəm uğurları, dünya birliyində möhkəmlənən yeri və rolu ilə diqqətdə olacaq.”



MƏTLƏB
Metlebsalahov@mail.ru

## Efir soyğunçuluğu: yığılan milyonlar kimlərin cibinə “axır”?

**Azərbaycan televiziya efirləri heç zaman olmadığı qədər təhlükəli bir fəlakətin içində çapalayırlar. Vaxtı ilə cəmiyyəti, xüsusilə, yeniyetmə və gəncləri maarifləndirən, həyatda onları doğru yola istiqamətləndirən, öz tamaşaçılarına mədəniyyət və mənəviyyat dolu proqramlar bəxş edən efir siyasəti, indi işbazların iyrənc pul toplama maxinasiyasına, müğənni və artistlərin bütöv bir xalqı ələ salması, açıq-aşkar yüz ad altında, min cildə girib insanları soymaq alətinə çevrilib. İnsanların həssas mənəvi dəyərlərini alət edib milyonlar, yüz minlər qamarlayan bu ”sosial layihələr”, artıq ən azı mənəvi cinayət sayılacaq işlərini gizlətmədən, tam açıq şəkildə aparırlar. İnsanlardan yığılan milyonların, yüz minlərin sonrakı taleyi isə qırmızıpapaq nağılının sonluğu kimi mücərrəddir. Nədən şəffaflıq əvəzinə qaranlıq qalır hər şey? Yığılan pulların sonluğu necə oldu? - sadəcə, MÜƏMMADIR, VƏSSALAM!**

Sağlamlıq problemləri olan insanları efirlərə çıxarıb, onlardan sipər kimi istifadə etmək, onların adına milyonlar yığmaq, sonra da o milyonların taleyini qaranlıq tunellərə soxmaq,- mənzərə və sonluq budur. Adamdan soruşarlar ki, həmin xəstə insan üçün yığılan pullar sonrakı mərhələdə nəyə xərcləndi, müalicəsi necə aparıldı, nədən milyonluq əməliyyatlar barədə şəffaf görüntülər ortada yoxdur? Həqiqətənmi o insanlar yığılan pullarla müalicə olundular, hansı xəstəxanalarda əməliyyat keçirdilər, hansı qiymətə? - məlum deyil. Nədən həmin insanların xəstəlikləri və müalicə qiymətləri barədə təcrübəli həkim personalından ibarət geniş tibbi müzakirələr təşkil edilmədi? Məlum olan budur ki, milyonlar yığılandan sonra əl-ayaq çəkildi, getdilər pulları ”sığallamağa”, vəssalam.

Yenə də deyirəm: imkansız, sağlamlığı ölüm-qalım arasında olan uşaq və gənclərin müalicəsi üçün dəstək toplamaq gözəl missiyadır, burası belədir. Amma bunun bir neçə telekanal xaric bütün telekanalların efirlərində mövsümi bazarlıq halına çevrilməsi, üstəgəl qeyri-şəffaf olması, bir çoxlarının sanki tapşırılmış kimi burada məcburi iştirakı və özlərini reklam etmələri böyük şübhələrə əsas yaradır.

Ən dəhşətlisi bilirsiniz nədir? - artıq bu soyğunçuluq işi daha həyasız şəkildə davam etdirilir. Qeyri-ciddi imic sahibi olan, rəzil fikirləri ilə insanlarda ikrah hissi yaradan hansısa müğənni efirə çıxıb əlindən alınan obyektinin geri qaytarılması üçün kampaniyaya başlayır. Kimin qulpundan nə çıxırsa göndərin gəlsin efirə. Və ən dəhşətlisi olan budur ki, bu qeyri-ciddi müğənnicikdən istifadə olunduğu, əsas məqsədin də 100 minə yaxın pulun ”toplanması” açıq-aşkar hər kəsə məlum olur. Bunlara kim ”yaşıl işıq” yandırıb ki, belə biyabırçı şəkildə efirləri soyğunçuluq tribunasına çevirsinlər? Bu, sözün əsl mənasında, heç bir qəbilə cəmiyyətində belə rast gəlinməyən, soyğunçuluğun hətta diletant səviyyəli rəzalətidir, başqa heç nə...

Onsuz da səviyyəsi və dünyagörüşü ”yerlərdə sürünən”, elementar mədəniyyət qaydalarına sahib olmayan, gözəllik salonlarından, serial çəkilişlərindən efirlərə yol tapan bəzi ”aparıcılar” öz biyabırçı hərəkətləri ilə efirləri baxılmaz hala salıblar.

Təəssüf, min təəssüf ki, əksər efirlər bu tipli ”aparıcılarla” dolub-daşır və hər kəsin gözü önündə bu xalqın min illik dəyərləri milyonlarla AZƏRBAYCANLININ YADDAŞINDAN SİLİNİR! Bunun üstünə bir də efirləri soyğunçuluq yuvasına çevirmək birbaşa bu xalqın mənəviyyatını və dəyərlərini məhv etməkdir. Məhv olan mənəviyyatımızın SƏSİ isə, bir neçə ildən sonra daha bərk çıxacaq...

# “Festival Azərbaycana mənəvi və siyasi dəstəkdir”

**””Teknofest” festivalının Azərbaycanda keçirilməsinin əhəmiyyəti kifayət qədər böyükdür”. Bu sözləri SİA-ya açıqlamasında deputat Ceyhun Məmmədov deyib.**

Onun sözlərinə görə, bu festivalın ölkəmizdə keçirilməsi Azərbaycan-Türkiyə əlaqələrinin sürətli inkişafının göstəricisidir: ”Onu da qeyd etmək lazımdır ki, bu əlaqələrin inkişafında iki ölkənin prezidentinin müstəsna xidmətləri var. Bu festival Azərbaycana mənəvi və siyasi dəstəkdir. Eyni zamanda Azərbaycan və Türkiyə tələbələrinin və şagirdlərinin innovasiya sahəsində, elmi biliklərin araşdırılması sahəsində bilik və bacarıqlarının bölüşdürülməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Bu festivalda həm cənab Prezident İlham Əliyev, həm də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çox mühüm mesajlar verdi. Gələcək nəsil bilməlidir ki, iki ölkənin güclü və qüdrətli olması bir-birimizin yanında olmasından qaynaqlanır. Bu baxımdan hesab edirəm ki, bu cür tədbirlər nə qədər çox keçirilsə ikitərəfli əlaqələrə o qədər çox öz töhfəsini verəcək”.



*Arzu Qurbanlı*



ARAŞDIRMA

# İnsanları dini inancına görə qınamaq olar?



**Din insanların fövqəltəbii güclərə, müqəddəs hesab etdikləri müxtəlif varlıqlara və tanrılara inancıdır. Tanrı və din anlayışı insan hisslərinin ehtiyacı nəticəsində yaranıb. İnsanlar təbii olaraq özlərini təhlükəsiz hiss etmək istəyirlər. Bu, təkcə fiziki güvən deyil, həm də psixoloji rahatlıqdır.**

Hinduizm məlum olan ən qədim dindir. Daha doğrusu, hinduizm dininin ən qədim din olduğu düşünülür. Bu din Hindistanın



Xajuraho şəhərindəki Vişvanatha Hindu məbədi YUNESKO-nun Dünya İrsi sırasındadır.

Müsəlmanlar İslamın ən mükəmməl din olduğuna inanırlar. Onların irəli sürdükləri səbəblər arasında ən son gələn din olduğu da bildirilir.

Müsəlmanlar Adəmin ilk yaradılmış insan və ilk peyğəmbər olduğuna inanırlar. Tövrat və ya yəhudi mənbələrinə görə Adəm 1000 və ya 2000 il yaşamış hesab edilir.

Hz. Məhəmməd bərabərlik və dözümlülüyü təbliğ edən İslamı gizli şəkildə yaymağa çalışdıqda, Məkkə əyanlarından reaksiya görərək İslam dinini daha tez yaymaq üçün Mədinəyə hicrət edib.

## Hansı ölkələr müsəlman dininə inanır?

İslam ölkələri
Əfqanıstan
İran
Mavritaniya
Pakistan
Səudiyyə Ərəbistanı
Yəmən



## Dünyada hansı dinlər var?

Xristianlıq
İslam
Buddizm
Hinduizm
Yəhudilik
Ateizm
Xalq inancları
Ən böyük din hansıdır?

Dindarların sayına görə ən böyük dini icma xristianlardır. Müsəlmanlar isə ikinci yerdədir.

## Dünyada neçə din var?

Dünyada ümumilikdə 4 din var. Dinlərin hər biri müxtəlif dövrlərdə yaranmış dinlərdir. Onlar həmçinin dini cəhətdən fərqli müddəaları ehtiva edir.

Başqalarına zərər verməyən hər hansı inanc hörmətə layiqdir.

Bəs, insanları dini inancına görə qınamaq olar? Bu nə dərəcədə düzgündür? SİA məsələ ilə bağlı araşdırma apararaq din xadimləri və psixoloqların fikirlərini öyrənib.

**Psixoloq Leylə Əli:** "Azərbaycan multikultural ölkədir. Bu gün biz digər ölkələrlə müqayisədə tolerantlığın, mədənimüxtəlifliyin, insanların seçim azadlığının ən parlaq nümunəsini Azərbaycanda müşahidə edə bilərik.



Vətəndaşın dini etiqad azadlığı mövcuddur və bu qanunvericilikdə də öz əksini tapıb. Hər bir Azərbaycan vətəndaşı hansı dinə etiqad etməsində və hansı dini seçməsində azaddır. Bu nöqteyi-nəzərdən insanları sitayiş etdiyi dininə görə qınamaq, tənqidə məruz qoymaq qəbuledilməzdir.

Dinin insan psixologiyasına təsiri sualına gəlincə. İnsanın ibadəti onun özünü olduğundan daha yaxşı etməyə, şəxsini daha dərindən tanımağa və dərk etməyə istiqamətlənir. İbadət etmək insanın daxili energetik quruluşunu, vəziyyətini və psixoloji durumunu sabit saxlamaq üçün ən ali vasitələrdən biridir. Əlbəttə ki, dini sitayişin fanatizm səviyyəsində digər insanların seçim və tərcihlərinə təsirini də bilirik. Bu qəbuledilməzdir. İnsan Allahdan, Tanrıdan nəyisə arzulayırsa bunu nə üçün istədiyini müəyyənləşdirməlidir. Yəni insanın dini etiqadı ilk növbədə özünü daha dərindən dərk etməyə istiqamətlənirsə, bu zaman biz sizinlə yüksək insani keyfiyyətlərdən bəhs etmiş oluruq".

**Yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov:** "Azərbaycan elə bir məkanda yerləşir ki, burada bütün dinlər demək olar ki, mərkəzi rol oynayır. İstər vaxtilə atəşpərəstlik, zərdüştlük, istər bunlardan sonrakı dini istiqamətlər olsun, onlar da müəyyən dövrlərdə əsas olub.

Eyni zamanda İslam dini ilə zədüştlük arasında zaman məsafəsi var. Bu zaman məsafəsində ilkin xristianlıqdan tutmuş, Alban Xristian kilsəsinə qədər Azərbaycanda ən böyük dinlərə sitayiş edən insanlar yaşayıb.

Eyni zamanda bundan əvvəl də istər Ərdəbil tərəfdə, istər Şimali Azərbaycanda Yəhudi dininə sitayiş olub. İndinin özündə də bu müşahidə olunur. Yəhudiliyə sitayiş edən qədim xəzər türkləri də var.

Daha sonra İslamın qəbul edilməsi Azərbaycanda süni və şiələrin yaşaması ölkəmizin dini multikultural dəyərlərinin bəşəri bir dəyər sisteminə çevrilməsinə təkan verdi. İnsanlar heç vaxt biri-birini dininə görə qınamayıblar.

Bir ölkədə ki, hər dinə aid olan məbəd və məscid qorunub saxlanıbsa, müxtəlif dinlərin bayramları qeyd olunubsa, bu həmin ölkənin multikultural dəyərlər sisteminin nümayişidir. Bunu bütün dünya bilir. Ona görə də məişət səviyyəsində bir insanın digərini dini inancına görə aşağılaması, onu tənqid etməsi qəbul edilən deyil. Bu sivil dünyada mədəniyyətsizlik və qeyri-etik hal kimi qəbul edilməlidir.

Mən yazıçı kimi, qəbul edirəm ki, əgər bir insanın ata və anası hansı dindədirsə o da həmin dində qalsa yaxşı olar. Amma insanların seçiminə də hörmətlə yanaşmaq lazımdır. Əgər həmin insan radikal deyilsə, dağıdıcı qüvvələrin yanında deyilsə, qanunu pozmursa onu heç kim təhqir və tənqid edə bilməz. Bunu edən insan qanun qarşısında da cavabdehdir. Çünki bizim qanunumuzda da inanc və inamla bağlı seçim imkanı verilir. Azərbaycanın təməl qanunları var ki, onlarda hər bir dini inancı olan insanın hisslərinə hörmətlə yanaşılır.

Eyni zamanda İranda, Ərəb ölkələrində, Türkiyədə, Pakistanda və Əfqanıstanda bizim tolerant dini baxışlarımız model olaraq götürülür. Düşünürəm ki, bu model daha da inkişaf etdirilməlidir. İnsanlara inanclarına görə yox, intellektual səviyyəsinə, cəmiyyətə verdiyi faydaya görə qiymət vermək lazımdır".

***Ayşən Vəli***



# Qalib kim olacaq, Avropa İttifaqı, yoxsa Rusiya?

**Azərbaycan Ermənistanla sərhədlərin delimitasiyası, daha sonra demarkasiyası və ondan da sonra iki ölkə arasında sülh müqaviləsinin bağlanması prosesinə hazırlaşır. 44 günlük müharibədən sonra iki ölkə rəsmiləri arasında artıq iki rəqəmlə hesablanacaq görüşlər keçirilib, müxtəlif qurumıar arasında təmaslar qurulub, müzakirələr aparılıb. Baxmayaraq ki, II Qarabağ - Vətən müharibəsində Azərbaycan inamlı qələb qazandı, yenə də humanizm prinsiplərindən çıxış edərək rəsmi Bakı Ermənistana şans verib. Ki, özünü ağıllı aparsın, verilən şansı dəyərləndirsin. Halbuki, birinci Qarabağ savaşında ermənilər hər bir şansı fürsət bilib, şəraitdən istifadə edərək azərbaycanlıları öz doğma yurdlarından qovub çıxarıb, öldürüb, yandırıb və onların başına olmazın münasibətlərini gətirib. Bu gün isə qalib Azərbaycan insanlığa sığmayan, xüsusən də ermənilərə xas olan vandalizm hərəkətlərini təkrarlamaq niyyətində olmadığını hər addımda sübut edir, qarşı tərəfə də adekvat addım atmaq imkanı yaradır.**

Ermənistan küçələrində baş verənlər isə fərqli münasibətlər yarada, Azərbaycanın fəqrli addımlar atmağa vadar edə bilər. Azərbaycan qalib ölkə kimi regionda, iki ölkə arasında sülh istəyir, 30 illik münaqişəyə son qoymaq istəyir. Rəsmi Bakı bu yanaşmada daim qala bilməz, səbr kasası daşanda isə yenidən silahlar danışa, revanşistlərin arzuları çin ola, yeni müharibə başlaya bilər. Növbəti toqquşmalarda isə Ermənistanın varlığı sual altına düşə bilər. Buna baxmayaraq Ermənistanın paytaxtında bir aydan çoxdur ki, etiraz aksiyaları təşkil edən daşnaksütyun partiyası Azərbaycanl sülh müqaviləsi imzalamaqdan uzaq kimi görünür. Hətta tərəfdarlarını Azərbaycanla sərhəd problemlərini həll etməyə, sülh müqaviləsi imzalamağa hazırlaşan hakimiyyəti devirməyə səsləyir, küçələri bağlayır, hakimiyyətin işini iflic edir, insanları itaətsizliyə çağırır.








Bəs dünya ölkələri, xüsusən də sülhyaratmada iştirak edən Avropa və Rusiya regionda baş verən hadisələrə hansı münasibəti sərgiləyirlər? "Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Ermənistan və Azərbaycan arasında son gərginlik kontekstində Avropa İttifaqının bütün xalqların rifahı naminə təhlükəsiz, sabit, dinc və firavan Cənubi Qafqazı təmin etmək üçün iki ölkə ilə əməkdaşlığı dərinləşdirməyə sadiqliyini bir daha təsdiqləyib". Bu barədə Ş.Mişelin mətbuat katibi Barend Leytsin bəyanatında deyilir. Qeyd edib ki, Avropa İttifaqı Şurasının rəhbəri iki ölkənin sərhəd komissiyalarının mayın 24-də baş tutan ilk tarixi iclasını alqışlayıb. Delimitasiya kontekstində o, Ermənistan və Azərbaycan arasında dövlət sərhədi boyunca sabitliyin və təhlükəsizliyin təmin edilməsinin müstəsna əhəmiyyətini vurğulayıb.

Avropa İttifaqı Şurasının prezidenti vurğulayıb ki, Ermənistan və Azərbaycan arasında münasibətlərin stabil tənzimlənməsi üçün bütün həll edilməmiş məsələlərin həlli, o cümlədən gələcək sülh sazişi ətrafında müzakirələrin irəli sürülməsi və münaqişənin əsas səbəblərini aradan qaldırmaq vacibdir. Ş.Mişelin sözlərinə görə, Qarabağda birinci müharibəyə, eləcə də 2020-ci ildə hərbi əməliyyatların bərpasına səbəb olan bütün əsas məsələlər həll edilməli, davamlı və ədalətli sülh üçün şərait yaradılmalıdır. Hər hansı bir münaqişə irsi kimi, bu kontekstdəki terminologiya xüsusilə həssasdır. Mişelin liderlərin mayın 22-də keçirilən görüşünün yekunu ilə bağlı bəyanatı müzakirələrin əvvəlcədən müəyyən edilmiş nəticəsinin təsdiqi kimi qəbul edilməməlidir. O bildirib ki, mayın 22-də Brüsseldə keçirilən görüşdə regionun kommunikasiyalarının blokdan çıxarılması məsələsinə xüsusilə toxunulub. Bu kontekstdə hər iki tərəf gələcək nəqliyyat infrastrukturu üçün ekstraterritorial ambisiyaların olmadığını təsdiqləyib.

Nəhayət, Ş.Mişel xalqların sülhə hazırlanmasının vacibliyini və bu baxımdan ictimai ritorikanın mühüm rolunu vurğulayıb. O, İrəvan və Bakı liderlərini salamlayıb və danışıqların davam etdirilməsi üçün əlverişli atmosferin təmin edilməsi üçün işləmək niyyətində olduğunu, həmçinin Aİ-nin etimad tədbirlərinə yardımını gücləndirməyə hazır olduğunu bildirib.

Bunun ardınca Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanla Rusiya Federasiyasının prezidenti Vladimir Putin arasında telefon danışığı olub. Rusiya prezidenti Ermənistanın baş nazirini ad günü münasibətilə təbrik etməklə yanaşı Ermənistan-Rusiya ikitərəfli münasibətlərin gündəliyi barədə müzakirə aparıb, regional problemlərə, o cümlədən Ermənistan-Azərbaycan sərhədindəki vəziyyətə toxunub. Rusiya Federasiyasının prezidenti Ermənistan və Azərbaycanın sərhəddə demarkasiya və təhlükəsizlik məsələləri üzrə komissiyalarının ilk iclasını alqışlayıb və Rusiyanın sərhədlərin demarkasiyası prosesinə yardım etməyə hazır olduğunu təsdiqləyib. Sazişə əsasən, komissiyaların növbəti iclasının Moskvada keçiriləcəyi vurğulanıb.

Regional kommunikasiyaların açılması məsələsi də müzakirə edilib, üçtərəfli işçi qrupun işinin aktivləşdirilməsinə dair razılıq əldə olunub. Baş nazir Paşinyan Rusiya Federasiyasının prezidenti ilə son Brüssel görüşü ilə bağlı təəssüratlarını bölüşüb və müzakirənin mahiyyəti ilə heç bir əlaqəsi olmayan şərhlərdən narahatlığını bildirib. Ermənistan Baş nazirinin və Rusiya Prezidentinin 19 aprel tarixli birgə bəyanatının müddəalarına uyğun olaraq, həmsöhbətlər "Dağlıq Qarabağ problemi"nin həlli ilə bağlı, xüsusən, ATƏT-in Minsk qrupunun həmsədrliyinin işinin intensivləşdirilməsi məsələlərini müzakirə edibər.

Bu arada jurnalistlərlə keçirdiyi brifinqdə Ermənistanın ərazi idarəetmə və infrastruktur nazirinin müavini və Komissiyada təmsil olunan Qnel Sanosyan bildirib ki, Ermənistan və Azərbaycanın delimitasiya və sərhəd təhlükəsizliyi komissiyalarının ilk iclası yaxşı və konstruktiv şəraitdə keçib. Əlavə edib ki, konstruktiv, normal, peşəkar müzakirə olub. İlk iclasda kifayət qədər mühüm məsələlər qaldırılıb, iş gündəliyi müəyyən edilib. Sanosyan sərhəddə baş verən son hadisədən danışaraq qeyd edib ki, erməni əsgərin ölümü bu kövrək münasibətlərə təsirsiz ötüşmür, cəmiyyətdə inamsızlıq yaradır.

Nəzərə alsaq ki, Ermənistanı hazırda idarə edən iqtidara müxalifətdə olan, daha doğrusu Azərbaycanla sülhə razılıq verən hakimiyyəti devirməyə və münasibətləri yenə sıfırıncı həddə gətirmək istəyənlər bu dəqiqə paytaxtın küçələrindədir və Paşinyan üçün real təhlükəyə çevriliblər, baş nazirin şansının nə qədər olacağını proqnozlaşdırmaq çox çətindir. Biz yazının əvvəlində həm Avropa İttifaqının, həm də Rusiyanın rəhbər şəxslərinin məsələyə münasibətlərini qeyd etdik. Bir az da dərinə getsək, sülh yaratmaq iddiasını ortaya qoymuş Brüsselə Moskvanın açıq şəkildə müharibə apardığını görə bilərik. Üzdə hər şeyin normal getdiyi görüntüsü yaratsalar da, gizlində bir-birinin mövqeyini zədələmək siyasəti yürüdülür, kimin Cənubi Qafqazda qalacağı məsələsi həll olunur. Maraqlı sualdır, Cənubi Qafqazda kim qalacaq, Avropa İttifaqı, yoxsa Rusiya?

**V.VƏLİYEV**

BAXIŞ BUCAĞI

# “Wolt”lar evlərimizə ölüm daşıyır...

**Bəzən bilərəkdən, bəzən də bilmədən sağlamlığımızı təhlükə qarşısına qoyuruq. Nə yeyirik, nə içirik, gün boyu orta və ali məktəblərə, işə yola saldığımız övladlarımız nə ilə qidalanır, heç bu barədə düşünürükmü? Məncə əsla düşünmürük. Bəlkə də elə son illər artan xəstəliklərin səbəbi bizim bu məsuliyyətsizliyimizdir. Bəlkə yox, doğrudan, bu, belədir. Harada nə gəldi alıb qidalanmaq, nə gəldi içməklə susuzluğu yatırmaq zaman-zaman müalicəsi olmayan xəstəliklərin qapımızı döyməsinə səbəb olub. Bütün bunları bilənlər də var, təsdiq edənlər də. Lakin hələ də bu barədə düşünən yoxdur. Əksinə, biz sağlamlığımız üçün təhlükəli olan yeməkləri evimizə ”dəvət” edir, özümüz öz əlimizlə ölümümüzü yaxınlaşdırırıq. Məsələn, bu gün şəhərdə hər addımda qarşılaşdığımız ”Wolt”lar səhərin sübhündən gecə yarısınadək evlərimizə nə daşıyır? Heç bu barədə vaxt tapıb düşünmüşükmü?**




## Vaxt var idi ki...

Saysız xəstəliklərlə üz-üzə dayananda nənə-babalarımızın zamanına nəzər salaraq deyirik ki, vaxt var idi ki, insanlar səhərdən axşamadək çöldə-bayırda çalışırdılar, nə bir xəstəlikləri olurdu, nə də bir şikayətləri. İndi dünyanın bu çağında-müasir texnologiyaların bütün işləri yüngülləşdirdiyi bir zamanda xəstəxanalarda xəstə əlindən yer yoxdur. Görəsən bu insanlara nə olub?

Nə olacaq? Yəqin ki, düşünməyə vaxt tapa bilmirik. Elə nənə-babalarımızın dediyi kimi, vaxt tapıb papağımızı qarşımıza qoyub düşünmürük. Düşünmürük ki, bu bəlalar qapılarımızı niyə bu qədər döyür. Axı vaxtilə insanlar daha çox işləyirdilər, bizdən qat-qat aşağı şəraiti olan evlərdə yaşayırdılar. Gündüz axşamadək qadınlarımız əllərində paltar yuyub durulayıb sərirdi, hər öynə yeməkdə nə qədər qab-qacaq yuyurdular. Qazın başında dayanmadan-durmadan ailəsi üçün yemək hazırlayır, hələ üstəlik qışa mürəbbə, kompot, turşu tədarükü də edirdilər. Hələ kənd yerlərində təsərrüfat işlərində çalışan qadınları demirəm. Lakin o zamanların qadınları ilə indiki qadınlarımızın sağlamlığını müqayisə etsək, görərik ki, onlar indikilərdən qat-qat sağlam idilər. Elə kişilərimiz də. Sübh çağından gün batanadək çalışırdılar. Yorulub əldən düşürdülər. Lakin sabahısı gün yenə eyni enerji ilə işə yollanırdılar. Çünki qidalar təbii idi. Nə yeyirdisə insan, ondan minlərlə sayda vitamin alırdı. İş zamanı itirdiyi enerjini bu qidalarla bərpa edə bilirdi. Süfrəsi üçün əksər məhsulları özü istehsal edirdi. Üstəlik bazara da çıxarırdı. İndi isə kəndli, şəhərli, hər kəs işdən əl götürüb, qalıb bazarların, marketlərin yollarında. Nəticə isə göz qarşısındadır. Nə o sağlam insanlar var, nə də sağlam qidalar.

Bütün bunlar bir yana, hələ kafe, restoranlardan hazır yeməklər də sifariş etməyə başlamışıq. Müxtəlif dadlar bizim ağız dadımızı o qədər oxşayır ki, öz mətbəximizdən çox onlara müraciət edirik. Beləliklə artıq yemək hazırlamaq da bəzi qadınlar üçün son plana düşüb.

## Polkovnik Sandersin toyuq budları,

*yoxsa Fatma nənənin qovurma dürməyi?*

İndi küçədə hər saniyə qarşılaşdığımız ”Wolt” lar evlərə yemək daşıyırlar. Maraqlıdır ki, onları gecə saatlarında, yəni 23-dən sonra da görmək olur. Düşünürsən ki, yaxşı, bunların daşıdıqlarını qoyaq bir kənara, bəs bu saatlarda yemək olar məgər? Sən demə olarmış, nə deyə bilərik.

Onların daşıdıqları yeməklərdən söhbət açaq bir az. Polkovnik Sandersin bir neçə otlardan yaratdığı ədviyyatlar qatılımış toyuq budları, ”Strips” ”Çiken Mc Nuggets”, ”Spaysi Çizzi”, ”Çizburqer”, sehrli toyuq qanadları, frilər, dadlandırıcı çoxsaylı souslar, ketçup, nə bilim, xardallı sous, yanında da Coca cola gün ərzində dayanmadan-durmadan evlərimizə daşınır. Daşınsın, sözümüz yox. Biz özümüz də gedib kafe, restoranlarda onlardan yeyə bilərik, lakin necə deyərlər, bu, ayda-ildə bir dəfə ola bilər. Bunu gündəlik qidamıza çevirmək isə, təbii ki, sağlamlığımıza öz əllərimizlə vurduğumuz zərbədir.

Belə nəticəyə gəlmək olar ki, ya biz ta yemək hazırlamaqdan bir dəfəlik əl götürmüşük, ya da evdə hazırladığımız yeməkləri ailə üzvlərinə bəyəndirə bilmirik ki, bu ”Wolt”ların əlindən şəhərdə tərpənmək olmur.

Sandersin dadlı toyuq budlarından danışarkən adını nənələrimizin simasında ümumiləşdirdiyim Fatma nənənin ət qovurması dürməyini xatırlamaya bilmədim. İndi Fatma nənə sağ qalsaydı, bəlkə də gördüklərindən ürəyi partlayardı. Deyərdi ki, gör nə günə qalmışam ki, Sanders gəlib mənim nəvələrimə yeməyini yedirdir. Bəs mənim əsrlərlə hazırladığım, dadına doyulmayan qovurmam, ondan balalarıma tutduğum dürmələr hara getdi. Heç bir əlavə qatqısı olmayan, tam təbii şəkildə hazırlanan qovurmanın Sandersin toyuq budlarından nəyi əskikdi ki, gecə-gündüz onları yeyirsiniz, amma doymaq bilmirsiniz? Axı günah valideynlərdədir. Onlar istəsəydilər uşaqlarına elə öyrədərdilər ki, onlar da meyillərini ancaq mənim qovurmama salardılar. O toyuq budları hansı şəraitdə bişirilir, bir dəfə istifadə edilmiş yağda daha nə qədər toyuq budları qızardılır, bilirsiniz? O sousların tərkibindən xəbəriniz var? Allah bilir ki, nələr vurulur onlara ki, dadlı olsunlar, həm də tez xarab olmasınlar. Hələ kartofu necə qızardırlar, İlahi? Nə bilirsiniz ki, o qızardılan yağdan təkrar qızartmada neçə dəfə istifadə olunub.

Yazıq Fatma nənə, doğrudan da dünyası dəyişməsəydi, indi haray salmışdı. Əsasən gənclərin meyil etdiyi üçün onların valideynlərinə üz tutub deyərdi ki, hanı mənim ətri haradan haraya yayılan ət qovurmam, o quyruq yağında qıpqırmızı qızartdığım kartof? Hanı mənim öz əllərimlə hazırladığım pomidor, bibər sousları, min bir adda milli mətbəx nümunələri? Niyə uşaqlarınızı bu yeməklərə alışdıra bilməmisiniz? Niyə icazə verirsiniz ki, onlar bizə yad mətbəxin yeməklərindən bu qədər istifadə edirlər? Onda görəsən bizlər nə cavab verəcəkdik?

## Uşaqlarla bacarmırıq?..

Həmişə yaxamızı qurtaran cavabı verəcəkdik: uşaqlarla bacarmırıq, zəmanə dəyişib. Lakin bu cavab sadəcə dediyim kimi yaxamızı ittihamlardan qurtarmaq üçün verdiyimiz cavabdır. Həqiqətdə isə uşaqlarla bacarmırıq deməyə haqqımız yoxdur. Çünki onları bu vəziyyətə özümüz gətirmişik. Burada söhbət tək onların qidalanmasından getmir, bütün sahələrdə bu gün uşaq, yeniyetmə və gənclərimizdə gördüyümüz qüsurlar biz valideynlərin qüsurudur. Görünür ki, onlara lazımi vaxt ayıra bilməmişik.

Hazırda uşaq, yeniyetmə və gənclərimizin meyil etdiyi yeməklərlə qidalanmasında da xüsusilə biz analar günahkarıq. Çünki onlarla lazımi söhbət aparmırıq. İşimiz asan olsun deyə kənardan evlərimizə yeməklərin daşınmasına göz yumuruq. Serial xəstəliyinə yoluxmağımız, bütün internet şəbəkələrində fırlanmağımız mətbəxin yolunu unutdurub bizlərə. O mətbəxə məxsus yüzlərlə dadlı-tamlı yeməkləri bişirməyi yadırğamışıq. Kompotları da, mürəbbələri də hazır almağa meyil etmişik. Tənbəlliyimiz o yerə gəlib çıxıb ki, ”Wolt” lar hər gün qapımızı döyməli olub. O qapının açılması ilə içəriyə nəyin girməsinin isə fərqində belə olmuruq. Bu qidaların gələcəkdə övladlarımızı hansı çətinliklərlə, xəstəliklərlə üz-üzə qoyacağını düşünmürük. Hələ üstəlik özümüz də övladlarımıza qoşulub həmin qidaları yeməyə yollanır və ya böyük şövqlə evlərimizə sifariş edirik. ”Wolt”larsa...

## ”Wolt”lar evlərimizə ölüm daşıyır

Sözün həqiqi mənasında, bu, belədir. Kiminsə inciməyindən, küsməyindən, etirazından asılı olmayaraq belədir. Özünü hər cür müdafiə edənlər olar bu söhbətdə: niyə o yeməklərə nə olub? Onlar belə şəraitdə hazırlanır, bu cür təbii nemətlərdən istifadə olunur və sair. Lakin gəlin heç olmasa aradabir həqiqətləri də görə bilək. Ən azından özümüzə, gələcəyimizə yazığımız gəlsin. Bir fakt söyləyim: sifariş verəndən sonra 13-14 dəqiqəyə qapıya çatan yemək nə dərəcədə keyfiyyətli ola bilər? Bunu necə, düşünən olubmu?

Evdə həmin kənardan aldığımız yeməklərə bənzər bir yemək hazırlamaq üçün ən azından 1-2 saat vaxt lazım gəlir. Bəs belə isə, ”Wolt”larla sifariş göndərənlər bunu necə dəqiqələr ərzində icra edir? Elə bu cəldliyin özü sübut edir ki, yeməklər əvvəlcədən hazırlanıb saxlanılır, sifariş verilən kimi qızdırılıb mənzilbaşına göndərilir. Bu yeməklərlə qidalananlar isə nəticəni hələ bu gün deyil, sabah görə biləcəklər. Bu gün görə bilmədiyimizi sabah göründə isə artıq gec olacaq. Elə fəsadlarla qarşılaşacağıq ki, o xəstəxana, bu xəstəxana gəzib dərdimizə dərman axtaracağıq.

Elə ”Wolt”ların daşıdığı yeməklər olmasın, kənardan sürəkli aldığımız, istifadə etdiyimiz bütün yeməkləri, mənşəyini bilmədiyimiz ərzaqları, təbiisini axtarıb tapmaq əvəzinə bazar-marketlərdə üzümüzə ”gülən” tərəvəzləri nə qədər ki, bol-bol alırıq, bəladan kənar olmayacağıq. Genetik modifikasiya olunmuş məhsullar azmış kimi, bir də kənardan alıb qidalandığımız yeməklərin nəticələrini bir neçə ildən sonra biləcəyik. Artıq gec olandan sonra bəlkə oyanaq bu rəngli yuxudan. Lakin məncə həmin oyanışı gələcəyə saxlamaq lazım deyil. Bu gün səhvlərimizi düzəltmək elə də çətin deyil, sadəcə səhd göstərməliyik.

Uşaqlarımızın gələcəyi naminə onları başa salmalıyıq. Kənardan yemək yeməyin davamlı olmamasını anlatmalıyıq. Vaxtımızı sərf etdiyimiz əyləncələrdən ayrılıb mətbəxə keçməliyik. Qolumuzu çırmalayıb ailəmizin yeməyini hazırlamalı, mətbəximizin min bir adda gözəl yeməklərini övladlarımıza tanıtmalıyıq. Onları öz mətbəximizin yeməklərinə alışdırmalıyıq. Ən əsas olan alışdırmaqdır. Əgər alışdıra bilirsənsə, gələcəkdə heç bir problemlə üzləşmirsən. Yox, əgər özünə əziyyət verib bunu bacara bilmirsənsə, onda bil ki, ”Wolt”lar evlərimizə ölüm daşıyır. Buna hər zaman hazır olaq...

***Mətanət MƏMMƏDOVA***

# "Bu gün dünyada bizdən cəsarətli, böyük XALQ yoxdur"

*Müsahibimiz Azərbaycan Jurnalistlər Birliyinin üzvü, politoloq Svetlana Bayramovadır*



***- Svetlana xanım, bildiyimiz kimi, siz ziyalı mövqeyindən çıxış edərək, ölkəmizin, eləcə də Cənubi Qafqazın lider siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının yaradılmasında fəal iştirak etmisiniz.***

- Mən, ölkəmizin ictimai-siyasi həyatının ən çətin zamanında Yeni Azərbaycan Partiyasının yaradılmasında fəal rol oynamış və bütün iradəmi səfərbər edərək prinsipial mövqedən çıxış etmişəm. Müstəqilliyimizin ilk illəri hər kəsin xatirindədir, anarxiya, xaos baş alıb gedirdi. Belə bir zamanda Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qaydışına mane olmaq istəyən insanlar çox idi. Bildiyiniz kimi, yaranmış zərurətdən irəli gələrək mərhum Zahid Qaralov Ulu Öndər Heydər Əliyevin Hüquqlarını Müdafiə Təşkilatını yaratmışdı. Mən bu barədə məlumat alandan sonra Ulu Öndərin müdafiəsi ilə bağlı ziyalı qadın olaraq onun yanına gedib fikirlərimi bildirdim. Bu o dövr idi ki, Heydər Əliyevin adını belə çəkmək yasaq olunur, tərəfdarları təqib edilirdi. Vurğulayım ki, həmin illərdə Zahid Qaralov Pedaqoji Problemlər İnstitutunun direktoru vəzifəsində çalışırdı. Vaxtı ilə Ulu Öndər Heydər Əliyevin vəzifəyə qoyduğu, problemlərini həll etdiyi insanlar ondan imtina edirdilər.

Yeni Azərbaycan Partiyasının yaradılmasında "Səs" qəzetinin rolu əvəzsizdir. "Səs" qəzetində ilk dəfə olaraq 91-lərin müraciəti dərc olundu. Əslində, bu təkcə 91-lərin müraciəti deyil, bütün Azərbaycan xalqının, dünyada yaşayan bir çox soydaşlarımızın səsi idi. Heydər Əliyev hakimiyyətə gəlməyinə mane olmaq üçün yaş senzi ilə bağlı qərar qəbul edilmişdir. Bu məhdudiyyət şəxsən Ulu Öndərə görə tətbiq olunsa da xalqın qəlbində Heydər Əliyevə məhəbbət, inam var idi. İctimai-siyasi hadisələr fonunda müxtəlif qruplaşmalar meydana gəlmişdi, hətta elə bir təhlükəli vəziyyət mövcud idi ki, Azərbaycan dövlət kimi siyasi xəritədən silinə bilərdi. Talış-Muğan Respublikası, sadvalçılar və s. meydana gəldi. Mövcud ictimai-siyasi proseslər insanları bir daha inandırdı ki, ümumazərbaycan mənafeyindən çıxış edən, onun taleyini düşünən və gələcəyini xoşbəxt görmək istəyən yeganə Lider Heydər Əliyevdir. 1994-cü ildə "Azərbaycan" qəzetində "Ziyalı mövqeyi" rublikası altında məqalələr yazdım və həmin məqalələr ölkədə əks-səda doğurdu. Hətta orada mən etiraf etmişdim ki, Heydər Əliyev nəhəngliyini dərk etmək üçün insan müdriklik dövrünü yaşamalı, biliklərə yiyələnməlidir. Heydər Əliyev xoşbəxtliyi onda idi ki, onun uğrunda mübarizə aparan xalq hərəkatı var idi və Azərbaycana sovet hakimiyyəti dövründə rəhbərlik etdiyi illərdə özünə qarşı inam və sevgini, etmadı formalaşdıra bilmişdir. Azərbaycanın müstəqilliyini təmin etmək üçün nə lazımdırsa, hamısını etmişdir.

***- Xalqın öz Liderinə qarşı inam və sevgisi əməli fəaliyyətin təzahürü idi. Svetlana xanım, bildiyimiz kimi, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın böyük şairi Tofiq Bayramın sovet dövründə həbsdən xilas olmasında böyük rolu olmuşdur.***

- 1998-ci ildə Heydər Əliyevin 75 illik yubileyi olanda bir qrup ziyalı Onunla görüşə getmişdik. Bu tarixi görüşdə illər boyu bizim ailənin qəlbində olan minnətdarlıq hissini mən şəxsən Heydər Əliyevə çatdıra bilmək fürsətindən yararlandım. Bu Tanrının sanki bir möcüzəsi idi və mən əyləşdiyim yerdə mikrafon quraşdırılmışdı. Ulu Öndər Heydər Əliyevə müraciət edib, şair Tofiq Bayramın bacısı olduğumu bildirdim. O, Tofiq Bayramı yaxşı xatırladığını söylədi. Heydər Əliyevə "İllərlə qəlbimdə qalan təəssüratı Sizinə bölüşmək istəyirəm", - dedim. Deməli, 1964-cü ildə türk müğənnisi, Avropada tanınmış ifaçı Sevda Aydan Bakıya gəlmişdi. O zaman Tofiq Bayram da Azərbaycan Dövlət Opera və Balet Teatrında işləyirdi və böyük maestro, böyük şəxsiyyət Niyazi teatrın rəhbəri vəzifəsində çalışırdı. Onunla ailəvi münasibətimiz var idi və Tofiq Bayramı da teatra bədii hissə müdiri təyin etmişdi. Sevda Aydan da Opera və Balet Teatrında "Aida" operasında çıxış etmək üçün bir neçə ay Azərbaycanda oldu və məşqlər etdi. Bu müddətdə Tofiq Bayramla ünsiyyət saxlamalı oldu. Bu o illər idi ki, Türkiyənin adını çəkmək belə müşkül idi.

Maestro Niyazinin şəxsi nüfuzundan irəli gəlirdi ki, Sevda Aydan Bakıya gəlmişdi. Tofiq Bayram da həmin qadına böyük sevgi hissi bəsləyir və şeir nəzmə çəkir. Həmin şeirdə belə misra var idi: canı canımdandır, qanı qanımdan, lisanımı ayırmaram lisanımdan. Bu şeir sonradan çap olunur və Türkiydə şöhrət qazanır. Türkiyənin mədəniyyət naziri Namiq Kamal Zeybək 90-cı illərdə Bakıya gələndə Heydər Əliyev adına Respublika Sarayında çıxış edərkən həmin şeiri əzbər söyləyir. Bildirir ki, Türkiyədə hər kəs bu şeiri əzbər bilir. Sovet dövründə şeir yazılan illərdə Azərbaycanın Türkiydə səfirliyi yox idi. Azərbaycan müstəqil dövlət deyildi. SSRİ-nin Türkiydəki fövqəladə və səlahiyyətli səfirinə şeir haqqında məlumat verilir və həmin şeirin məzmununa diqqət yetirilir. Belə bir sual yaranmışdır ki, necə yəni, azərbaycanlılar məgər türkdürlər? Bununla bağlı SSRİ-nin Xarici İşlər Nairliyindən Azərbaycana göstəriş verilir ki, məsələ araşdırılsın və bu nə deməkdir. Senzuradan kənar bir misranı belə xaricdə çap etdirmək mümkün deyildi. Beləcə, bu məsələdən Heydər Əliyev xəbər tutur. O. həmin illərdə Təhlükəsizlik Komitəsinin sədri müavini işləyirdi. Ulu Öndərə göstəriş verilir ki, bu şairlə bağlı bir tədbir görülsün. Müdrik Şəxsiyyət Heydər Əliyev Niyaziyə bildirir ki. Tofiq Bayram ara sakitləşənə qədər bir müddət ata evində - Əmircanda qalsın. Onu da maestro Niyaziyə göstəriş verir ki, Tofiq Bayram işə gəlməsin, amma onun maaşı yazılsın, şairi pulsuz qoymaq olmaz. Bu, Ulu Öndər Heydər Əliyevin necə nəhəng bir Şəxsiyyət olduğunun daha bir göstəricisidir. Əslində, cəzalandırmalı olan bir insan üçün Heydər Əliyev tərəfindən belə bir humanist addım atıldı. Hadisələr, həyat sübut etdi ki, Türkiyəyə məhəbbət, türkçülük Ulu Öndər Heydər Əliyevin qəlbindədir. Bunun nəticəsidir ki, bu gün canı canından, qanı qanından olan övladı - Onun fiziki, mənəvi varisi Azərbaycan Prezidenti İlham Əliyev türk dünyasının ən sevilən liderlərindən biri kimi qəbul olunur, türk dövlətləri ilə qardaşlıq münasibəti var. Həmişə əminliklə vurğulayıram ki, bu sevginin mənbəyi Cənab İlham Əliyevə atasından - Ulu Öndər Heydər Əliyevdən keçib. Heydər Əliyevin Türkiyəyə, türklərə olan sevgisindən aşılanıb. Vurğulamaq yerinə düşər ki, Heydər Əliyev Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi illərdə ilk dəfə olaraq Azərbaycan müğənniləri, bəstəkarları, eləcə də tanınmış insanları Türkiyəyə getmək imkanı qazandılar. Heydər Əliyev Azərbaycan Mərkəzi Komitəsinin Birinci Katibi olduğu zaman bu imkanlar daha da genişləndi. Xalq artisti Zeynəb Xanlarova, maestro Niyazi və başqaları xarici ölkələrə səfər etdilər. Heydər Əliyevin diqqət və qayğısını öz ailəmizin üzərində hiss etmişəm və Tofiq Bayram da hər zaman diqqət və qayğı ilə əhatə olunub. Ulu Öndər ölkəmizdə keçirilən məhsul bayramlarında, rayonlarda keçirilən tədbirlərdə, eləcə də Şuşada o zaman açılan Vaqif Poeziya Günlərində iştirak üçün Tofiq Bayramı xüsusi siyahıya salırdı və o da bu tədbirlərdə iştirak edirdi. Tofiq Bayram 90-cı illərdə yaşanılan hadisələri, eləcə də Qərbi Azərbaycan əhalisinin Ermənistandan deportasiya olunmasını incə ruhlu şair olaraq çox ağır yaşamış oldu və xəstələndi. Mən həmişə düşünürəm ki, Tofik dünyasını dəyişdiyi zaman Heydər Əliyev hakimiyyətdə olsaydı, Onun diqqətində olardı və şairi ölümün ayağından xilas edərdi. Etiraf edim ki, mənim anamın qəlbində Heydər Əliyevə məhəbbət sonsuz idi. Heydər Əliyevin göstərişi ilə Tofiq Bayramın Əmircanda büstü qoyuldu və adına park açıldı. Həmin açılış mərasimində 1998-ci ildə Heydər Əliyev iştirak etdi və ailəmizin üzvləri ilə görüşdü. Bu mənim ömrümün ən gözəl anıdır. Mən hər zaman o anları minnətdarlıqla xatırlayıram, eləcə də ailəmiz, bütün əmircanlılar xalqın şairinə dövlət rəhbərinin belə isti münasibətini, o zamanın xoş anlarını yaddan çıxarmırlar.

***- Svetlana xanım, sizdə şəxsiyyət, möhkəm iradəyə sahib, prinsipiallıq kimi dəyərlərin formalaşması hardan qaynaqlanır? Yəqin ki, bu da bir məktəbdir və siz bu məktəbdən bəhrələnmisiniz.***

- Bu, əlbəttə ki, genetik xüsusiyyətlə bağlıdır. Mənim babam Məşədi Hüseynəlinin Bakıda 7 yerdə mülkü, Buzovnada 3 böyük malikanələri var idi və həmin dövrün çox ədalətli, xeyriyyəçi adamı olub. Bizim evimiz Göy məscidin yerləşdiyi ərazidə olub. Həmin dövrdə məscid tikməyə ehtiyac yarandığından babam həmin ərazini təmənnasız olaraq məscid tikilməsinə verib. 30-cu illərin repressiyasından babam kənarda qalmayıb. Babam o qədər xeyirxah insan olub ki, onu tanıyanlar hər zaman babamı ehtiramla yada salıblar. Mənim anamın atası Ərdəbilli olub və orada çox böyük ərbab olub. Onun Ərdəbildə Torpaqlı adlı məhsuldar və məşhur kəndi olub. O kənd indi də var. Biz Ərdəbil kökənliyik. Əlbəttə ki, əsas dəyərlərin formalaşması bu amillərlə bağlıdır. Qardaşım Tofik də çox cəsarətli insan idi, heç nədən qorxmadan sözün düzünü deyərdi. Təsəvvür edin ki, kommunist rejiminin sərt çağlarında "Partbilet" şeirini yazmışdı. Şair yazır ki, 26-ların mərmər məzarı mənim daş cildli partbiletimdir. Görün, şairin uzaqgörənliyi necədir ki, partbileti daş məzarlıqla müqayisə edir. O, heç zaman Kommunist Partiyasının üzvü olmayıb. 26-ları o illərdə bizə qəhrəman kimi təqdim edirdilər. Şeirdən belə sətiraltı məna çıxır ki, partbiletin yeri elə məzarlıqdır. 26-lar kimi Kommunist Partiyasının bileti də öz əhəmiyyətini itirmiş oldu.

***- Belə bir şəcərənin daşıyıcısı olan Svetlana xanım, şübhəsiz ki, xatirələrini qələmə alıb.***

- Bəli, mən xatirələrimi qələmə almışam və həmin məqalələr bir çox dövrü mətbuatda dərc olunub. Deyim ki, mənim əməkdaşlığım ən çox "Səs" qəzeti ilə bağlı olub. Həyatımda, bir jurnalist kimi formalaşmamda, ictimiyyət arasında tanınmağımda "Səs" qəzetinin rolu əvəzsizdir. Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyev həmişə deyirdi ki, "Səs" mənim ən çox sevdiyim qəzetdir. Bəli, mən də xoşbəxtlikdən "Səs"lə əməkdaşlıq etdim və bu mətbu orqanda yazılarım dərc edildi. Eşitdiyimə görə, Heydər Əliyev məqalələrimi oxuyurdu və bundan böyük xoşbəxlik mənim üçün nə ola bilərdi? Ulu Öndər məni şairin bacısı kimi tanıyırdı. O vaxt "Səs" qəzetində mənim oftalmoloq alim Zərifə xanım Əliyeva ilə bağlı yazım dərc olunmuşdu və həmin məqaləmi da Heydər Əliyev oxumuşdu. Ətrafında olan bir şəxs vasitəsi ilə mənə təşəkkürünü bildirmişdi. Ulu Öndərin Tofiqin də, mənim də, ümumilikdə bizim ailənin həyatında müstəsna rolu olub. Ehtiramla yad edirik. İstər xarici radiostansiyalara, yerli televiziya və radio kanallarına verdiyim müsahibələrdə hər zaman yalnız bir mövqedən çıxış etmişəm.

Mənim xoşbəxtliyim onda olub ki, ailəmizin 7-ci övladı olmuşam. İnsan biləndə ki, ailə onu müdafiə edir, o insan güclü olur. Atam ağaclara qulluq edəndə yanında olurdum. Bazara gedirdisə, məni özü ilə aparırdı. İnsanlarla danışmağı, ağaclara necə qulluq etməyi və s. ondan öyrənmişəm. Orta məktəbdə də, ali təhsil ocağında da əla qiymətlərlə təhsil almışam. Sinif nümayəndəsi olmuşam. Xarici Dillər Universitetinin tələbəsi olduğum illərdə institut komsomol komitəsi idarə heyətinin üzvü, qurultay, plenum nümayəndəsi olmuşam. Bütün bunlar mənim xarakterimi formalaşdırıb. Kiməsə vəzifəsinə görə deyil, insanlığı, istedadına görə münasibət bəsləmişəm. Əzilənin müdafiəçisi olmuşam.

***- Müsahibələrinizin birində bildirmisiniz ki, Şuşanı görmək, Cıdır düzünə qalxmaq ən böyük arzumdur. Bu gün bizə qismət olub.***

- Bəli, bu mənim ən böyük arzumdur. Amma mən Şuşaya bir neçə saatlıq yox, arzular qanadında getmək istəyirəm. Mən o illərdə Şuşaya gedəndə gənc, tələbə qız idim və o diyarı qarış-qarış gəzmişəm. Şuşanın ətrafında o dağları gəzərkən erməni dilində olan yazıları görüb, dəhşətə gəlirdim. Bu mənim ürəyimin ağrısı idi. Mən Şuşanın elə bir cığırı yoxdu ki, oranı gəzməyim. İstədiyim kimi gedərək orada qalmaq, o yerləri, meşələri, bulaqları gəzmək mənim illərdir ki, arzum, həsrətim idi. Bu bizim bütün ailənin arzusudur. O vaxt Tofiq Bayram şeirlərinin birində yazırdı ki, gözlərimin qarasını verərəm, Qarabağı verməırəm. Bu onun sonuncu şeirindən bir misradır. O vaxt hələ Qarabağ torpağı işğal olunmamışdı. Nə yaxşı ki, işğal olunan torpaqlarımızı görmədi.

Həqiqətən də xoşbəxt xalqıq. Son vaxtlar Ulu Öndər Heydər Əliyevin Qarabağla, itirilmiş torpaqlarımızda bağlı çıxışlarını dinləyirəm. və dəhşətə gəlirəm ki, Ümummilli Lider hər zaman "biz o torpaqlara qayıdacağıq", - deyə ifadəsini əminliklə qeyd edir. O inam hissi Heydər Əliyevdə çox güclü idi. Azərbaycan Prezidenti Cənab İlham Əliyev atasının bütün vəsiyyətlərini yerinə yetirdi. Bu gün bəzi hallarda deyilir ki, kimsə mitinq keçirəcək. Hansı mitinqdən söhbət gedə bilər ki, biz mitinq problemini artıq həll etmişik və Qarabağı almışıq. Bu gün dünyada bizdən cəsarətli, böyük Xalq yoxdur. Ermənistan adlı ölkəni məhv etmiş olduq. Bəlkə, əsrlər lazımdır ki, ermənilər yenidən özünə gələ bilsin.

***- Maraqlıdır, qaynar bir ömür yaşayan, həmişə mübariz, fəal qadın olan Svetlana xanım bu gün nə işlə məşğuldur?***

- Əvvəla, bir qadın və nənə kimi arzuma çatmışam. Övladlarımın və nəvələrimin böyüməsində, tərbiyəsində bir ana və nənə olaraq borcumu yerinə yetirmişəm. Yenə də həmişə kimi çox mütaliə edirəm, məqalələr yazır, bütün hadisələrə münasibətimi bildirirəm. Hərdən məndən soruşanda neçə yaşın var, deyirəm 18. İnsanın ruhu qocalmasın, qanadı qırılmasın. Həyatdır, əzizlərimi də itirmişəm. Mənə qarşı haqsızlıq, ədalətsizlik də olub. Əsas odur ki, inamımı itirməmişəm. Yeni Azərbaycan Partiyasının yaradılması uğrunda mübarizə aparan az insanlardan bir olmuşam və öz məsləkimdən, inamından dönməmişəm.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP Bərdə rayon təşkilatı şəhid uşaqları üçün bayram konserti keçirib

**YAP Bərdə rayon təşkilatı təbliğat qrupunun növbəti tədbiri şəhid uşaqları ilə birgə bayram konserti formasında keçirilib. "İdeoloji maarifləndirmə konsepsiyası" ilə bağlı YAP Bərdə rayon təşkilatı təbliğat qrupunun üzvü, şəhər 7 saylı tam orta məktəbin direktoru Mehparə Mustafayevanın təşkilatçılığı ilə keçirilən tədbir həmin məktəbin şagirdlərinin hazırladıqları sərgi və kompozisiyaya baxışla başlamışdır.**



Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir. Ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Sonra Mehparə Mustafayeva 1 İyun - Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə iştirakçıları təbrik edərək çıxışına Ulu Öndər Heydər Əliyevin Ümumbəşəri dəyərlərimizlə bağlı söylədiyi "Öz milli-mənəvi dəyərlərimizi ümumbəşəri dəyərlərlə birləşdirib, zənginləşdirib Azərbaycan xalqının ümumi dəyərlərini yaratmalıyıq" fikri ilə başlamışdır. Və bu sintezi bizim milli ideologiyanın bu günü və gələcəyidir, deyə, vurğulamışdır. YAP Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskaya çıxış edərək, ümumbəşəri dəyərlərin əsas tərkib hissəsi olan uşaqlara dövlət səviyyəsində diqqət və qayğının göstərilməsindən ölkə Prezidenti cənab İlham Əliyev və Birinci Vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən prioritet istiqamətə çevrilməsindən və bununla da dövlətin gələcəyinin etibarlı əllərə əmanət edilməsindən danışmışdır. Bildirmişdir ki, cənab Prezidentin dediyi kimi, ümumbəşəri dəyərlərə inteqrasiya etmək olar, ancaq milli-mənəvi dəyərləri qorumaqla.

YAP Bərdə rayon təşkilatı təbliğat qrupunun üzvləri Nərgiz Şərifova, Şəmsiyyə Abbaszadə, Elçin Cəfərli, Tofiqə Məmmədova, Etibar Hüseynova, Aynurə Eyyubova, Səfurə Hümbətova, sonra şəhid ailələri Mətanət Orucova, Səkinə Əliyeva, Aydan Paşayeva, Günay Elzamin çıxış etmişlər. Tədbir boyunca uşaqların rəngarəng musiqi proqramları bir-birini əvəz etmişdir. Tədbirdən sonra YAP Bərdə rayon təşkilatının fəalları Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən Bərdənin Qarayusifli kəndinə atılmış raket bombaları nəticəsində həlak olmuş Aysu İsgəndərovanın ailəsində olmuş, 1 İyun Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə şəhid Aysunun bacılarını hədiyyələrlə sevindirməyə çalışmışlar.

# "Milli maraqlar və xarici siyasət"

*Bu mövzuda YAP Yasamal rayon təşkilatında tədbir keçirilib*

**YAP Yasamal rayon təşkilatında "Milli maraqlar və xarici siyasət" mövzusunda gənclərlə keçirilən silsilə tədbirin növbəti qonağı Yeni Azərbaycan Partiyası Təftiş Komissiyasının üzvü, millət vəkili, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov olub. Əvvəlcə YAP Yasamal rayon təşkilatında Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb, xatirəsi dərin ehtiramla yad edilib.YAP Yasamal rayon təşkilatında baş tutan tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyünün bərpası uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**






Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev tədbir iştirakçılarını salamlayaraq Yeni Azərbaycan Partiyası Təftiş Komissiyasının üzvü, millət vəkili, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov haqqında tədbir iştirakçılarına məlumat verib. B.Nəbiyev bildirib ki, xalqın etimadını qazanmaqla tarixi şəxsiyyətə çevrilən Cənab Prezident İlham Əliyevin yürütdüyü siyasət müasir Azərbaycanın güclənməsinə, ölkəmizin beynəlxalq aləmdə mövqeyinin daha da möhkəmlənməsinə və nüfuzunun artmasına xidmət edir. O deyib ki, Cənab Prezident İlham Əliyevin məqsədyönlü siyasi-diplomatik fəaliyyəti, Azərbaycanın siyasi-iqtisadi müstəqilliyinin daha da möhkəmlənməsi istiqamətində həyata keçirdiyi mühüm tədbirlər, qəbul etdiyi strateji proqramlar. "Ulu Öndər Heydər Əliyev siyasətinin və ideyalarının ardıcıl və dönməz şəkildə gerçəkləşdirilməsi xətti Azərbaycan xalqının xoşbəxt, firavan sabahına, müstəqilliyimizin əbədiliyinə inamını qat-qat artırıb. Bu fəaliyyət və siyasət xalq tərəfindən bəyənilir və dəstəklənir. Bütün bunların ən bariz nümunəsi heç şübhəsiz Vətən müharibəsində əldə etdiyimiz şanlı qələbədir".

Tədbirdə çıxış edən YAP Təftiş Komissiyasının üzvü, millət vəkili, Milli Məclisin Təbii ehtiyatlar,energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov tədbirin "1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü"nə təsadüf etdiyinə görə, ilk öncə bu münasibətlə uşaqları təbrik edib. S.Qurbanov Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsindən bəhs edərək, bildirib ki, Azərbaycan xalqının, əvvəla, dərin etnoqrafik kökləri olan, ikincisi, müəyyən tarixi dövrdə - XIX əsrin sonu, XX əsrin əvvəllərində formalaşan, nəhayət, kifayət qədər mürəkkəb və zəngin bir təkamül tarixi keçən milli ideologiyasıdır. Məhz Ulu Öndər Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində azərbaycançılıq ideologiyasının tərkib hissələri olan türkçülük, müsəlmançılıq və müasirliyin üzvi vəhdətdə, heç birinə digərindən daha böyük üstünlük vermədən, bir bütöv halında qəbul edilərək xalqın milli mənafeləri naminə həyata keçirilməsi baş tutmuşdur.

Tədbirdə "1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü" ilə əlaqədar olaraq Avaz-2 Televiziya Muğam Müsabiqəsinin qalibi Elxan Məmmədlinin ifası dinlənilib.Tədbirdə gənclərin çoxsaylı sualları cavablandırılıb, fəal gənclərə hədiyyələr təqdim edilib. Sonda gənclərlə xatirə şəkli çəkdirilib.

***Nəzakət Ələddinqızı***

# Şəhid ailələri dövlətin və xalqın qayğısı ilə əhatə olunub

*Ağstafada şəhidin xatirəsi anılıb*

Dünən ağstafalı Vətən müharibəsi şəhidi Əlizadə Xəyal Nəsrəddin oğlunun doğum günü münasibətilə Vurğun qəsəbə qəbiristanlığında məzarı ziyarət olunub, məzarı önünə gül dəstələri düzülərək, əziz xatirəsi ehtiramla anılıb, ruhuna dualar oxunub. Tədbirdə Yeni Azərbaycan Partiyası Ağstafa rayon təşkilatının sədri Etibar Hacıyev, Ağstafa Rayon İcra Hakimiyyəti aparatının "Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsi"nin müdiri Ariz Qədiməliyev, şöbənin əməkdaşı Vüqar Həsənov, Ağstafa Rayon Gənclər və İdman İdarəsinin rəisi Əziz Məsmalıyev, Gənclərin İnkişaf və Karyera Mərkəzinin Ağstafa nümayəndəliyinin əməkdaşı Elmar Rzalı, Ərazi Partiya Təşkilatının fəalları, şəhidimizin ailə üzvləri, şəhid ailələri, qazilər və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbir çərçivəsində digər Vətən müharibəsi şəhidlərinin də məzarları ziyarət olunub, məzarları önünə gül dəstələri düzülərək, əziz xatirələri ehtiramla anılıb.Daha sonra tədbir iştirakçıları şəhid Xəyal Əlizadənin ailə üzvlərini ziyarət edərək, onların qayğıları ilə maraqlanıblar, dərin hüzünlə başsağlığı veriblər. Söhbət zamanı şəhidimizin keçdiyi şərəfli həyat və döyüş yolundan geniş bəhs edilib.





Şəhidimizin ailəsi dövlət səviyyəsində onlara göstərilən diqqət və qayğıya görə cənab Prezident, Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildiriblər. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

TƏRS BAXIŞ+ÖZƏL



# RSK-DAN DAHA BİR QƏLƏT: xristian terror təşkilatı Laçın dəhlizindən Xankəndiyə keçdi!

*Separatçı-quldur rejiminin başçısı Araik Arutyunyan Xankəndiyə qanunsuz səfər etmiş və xristianlıq pərdəsi altında fəaliyyət göstərən terrorçu xarakterli təşkilat rəhbərləri ilə görüşüb*

**Görünür, Azərbaycan rəhbərliyinin bu vaxta qədər etdiyi xəbərdarlıqları və verdyi şansları hələ də doğru-dürüst dərk etməyən Ermənistan-"dqr" cütlüyü, habelə onların qaunsuz, bir sıra hallarda isə cinayətkar əməllərinə göz yuman Rusiya sülhməramlıları kontingenti Azərbaycan cəmiyyətində hiddət doğuran niyyətlərindən əl çəkmək fikrində deyillər. Belə ki, sözdə "humanitar layihələr" həyata keçirmək adı altında erməni apostol kilsəsinin Xankəndindəki yeparxiyası binasının, həmçinin Tərtər rayonunun Ağdərə şəhərindəki kilsənin "əsaslı təmiri" məsələlərini "müzakirə" etmək üçün Azərbaycan ərazisinə qanunsuz səfər edən həmin ünsürlər məhz RSK-nın müvəqqəti nəzarəti altındakı ərazidən buraxılıblar.**

### "SOS - Şərqin Xristianları"nın Xankəndidə hansı "itləri" azıb?!

Artıq o da məlumdur ki, sözügedən "humanitar" təşkilat barəsində 2022-ci ilin fevralın 18-də - Rusiyanın Ukraynada hərbi əməliyyatlara başlamasına bir neçə gün qalmış Fransa hüquq-mühafizə strukturları, habelə digər müvafiq dövlət qurumları tərəfindən ciddi təhqiqat işlərinə başlanılıb.

Bəlli olub ki, "SOS - Şərqin Xristianları" ("SOS - Chr?tiens d'Orient") "ictimai təşkilatının" üzvləri Suriyanın Həma əyalətində və digər şəhərlərində insanlığa qarşı hərbi cinayətlərdə ittiham olunan və Suriya rejimini dəstəkləyən yerli silahlılarla sıx əlaqələr saxlayırlar. Onu da qeyd edək ki, adıçəkilən təşkilatla bağlı İstintaqı Fransa Milli Jandarmeriyasının İnsanlığa Qarşı Cinayətlər, Soyqırım və Müharibə Cinayətləri ilə Mübarizə Mərkəzi Bürosu ("OCLCH") həyata keçirir.

Fransanın Milli Jandarmeriyası ilə yanaşı, ölkənin prokurorluq orqanının da həmin təşkilatla bağlı bəzi məqamları üzə çıxardığı məlum olub. Misal üçün, məlum olub ki, təşkilat üzvləri Suriya rejiminin xüsusi cəza dəstələrindən biri - "Şəbihə" ilə sıx münasibətlərdədir. "Şəbihə" isə mülki şəxsləri hədəfə alaraq onları qətlə yetirən, ayrı-ayrı vəhşi üsullu cəzalar tətbiq edən, edam funksiyalarını həyata keçirən silahlı təşkilat olaraq qeydə alınmışdır. Beləliklə, "Şəbihə"nin liderlərinin də "SOS - Şərqin Xristianları" ilə əlaqəsi üzə çıxıb və həmin şəxslər isə Xankəndiyə qanunsuz səfər edən ərəb xristianlar - Simon Əl-Vekil və Nebil Əl-Abdullahdır.

### Terror məqsədləri üçün yığılan on minlərlə avrolar

Həmçinin o da agahdır ki, 2016-cı ildən bəri "SOS - Şərqin Xristianları" Əsəd rejiminin silahlı qüvvələrinin yardımları ilə "humanitar" əməliyyatlar üçün 100 minlərlə avro vəsaitlər topladığı deyilir. Bu vəsaitlərin dəqiq hara xərcləndiyi barədə məlumatlar verilməsə də "OCLCH" bu vəsaitlərin məhz silahlara və s. tələblərə xərcləndiyini istisna etməyib.

Daha bir məlumat isə budur ki, "SOS - Şərq Xristianları" təşkilatının baş direktoru Benjamin Blanşar 2021-ci ilin payızında Simon Al-Vekil ilə görünüb. 2021-ci ilin 27 oktyabrında isə o, Rusiyanın paytaxtı Moskvada "Xristian Dünyası Birliyi"nin konfransında Nebil Əl-Abdullahın yanında əyləşib.

"SOS - Şərq Xristianları" üzvləri özlərini "apolitik" , yəni siyasətdən uzaq kimi qələmə versələr də, təşkilat 2013-cü ildə yarandığı gündən Fransada ifrat sağçılarla sıx əlaqə saxlayır. Onlara ən çox dəstək göstərənlərdən biri isə bu gün açıq-aşkar Suriya rejiminə dəstək göstərən Fransa prezidentliyinə sabiq namizəd olmuş aşırı sağçı Le Pendir. Daha bir hissəsi isə Erik Zemmurun tərəfdarlarıdırlar. Bütövlükdə onlar "Milli Birlik" xarakterli digər sağçı partiyalarla iş birliyi qurmaqda davam edirlər. Bundan əlavə, Zemmurun 2019-cu ildə "SOS Şərqin Xristianları" tərəfindən Suriyanın cinayətkar "Şəbihə" qruplaşmasının nəzarət etdiyi Mharde kəndi üçün təşkil etdiyi xeyriyyə həracına 20 min avro bağışladığı da məlum faktdır.

### Bütün bu qanunsuzluqlar necə deyərlər, Bakının dəftərinə yazılır və hesabı da sorulacaq

Beləliklə, fakt budur ki, RSK-nın hazırkı dövrə qədər buraxdığı ciddi səhvləri ilə yanaşı, bu gün onların burunlarının altından Xankəndiyə bərələrində cinayət işi açılmış terrorçular keçib-getməkdədirlər. Əlbəttə ki, bütün bu qaunsuzluqlar necə deyərlər, Bakının dəftərinə yazılır və hesabı da sorulacaq. Amma Azərbaycanın suveren ərazilərində belə bir yanlışlıqlara yol verilməsi artıq bütün qırmızı xətləri keçir. Bu gün Azərbaycan dövlətinin regionda sülhün və inkişafın bərqərar olması üçün göstərdiyi fəallıqları məhz ermənilər və onların havadarları tərəfindən pozulur. O cümlədən, RSK-nın üzərinə götürdüyü vəzifələrini vicdanla yerinə yetirməməsi artıq hədləri aşır. Görünür, xəbərdarlıqlardan nəticə çıxarmayanlara qarşı daha sərt və birdəfəlik tədbirlərin görülməsinin vaxtı artıq (!) çatıb

**Rövşən RƏSULOV**

# "Brüsselin rəsmi Moskvanı danışıqlar formatından kənarda saxlamaq niyyəti yoxdur"

**"Brüssel sülh gündəliyinə uyğun olaraq, proseslərin inkişaf etməsi və əldə olunan razılıqların icrası mühüm əhəmiyyət kəsb edir. Məhz Brüsseldə əldə olunan razılıqlara əsasən Azərbaycan və Ermənistan arasında sərhədlərlə bağlı komissiyanın təşkil olunması çox müsbət bir addımdır". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq İlyas Hüseynov deyib.**



Onun sözlərinə görə, baş nazirlərin müavinləri səviyyəsində Azərbaycan-Ermənistan sərhədində görüşün keçirilməsi müəyyən problemlərə yerində nəzər salmaq, onları müzakirə etmək və həll etmək üçün yaxşı bir imkandır: "Mayın 22-də Brüsseldə keçirilmiş görüş nəticəsində bu prosesin həyata keçirilməsi də Brüssel sülh formatının effektivliyini sərgiləyir. Şarl Mişelin moderatorluğu ilə keçirilmiş görüşlərdən sonra mühüm razılıqlar əldə olunur və siyasi danışıqlar davam etdirilir. Sərhədə görüş keçirilməsindən sonra Moskva və Brüsseldə komissiyanın iclaslarının proqnozlaşdırılır. İkinci görüş Moskvada keçiriləcək. Bu həm də o deməkdir ki, Rusiyada regionda siyasi prosesdə iştirak edir. Ən azından Brüssel, rəsmi Moskvanı danışıqlar formatından kənarda saxlamaq niyyəti yoxdur. Yəni əsas istək məhz Rusiyanın moderatorluğu ilə keçirilmiş danışıqların davam etdirilməsi, onun effektivliyinin artırılmasıdır. Bu baxımdan, sərhədlərlə bağlı məsələdə Rusiyada yardımçı olmalıdır, xəritələrin Rusiya tərəfdə mövcudluğu prosesi daha da asanlaşdırılmalıdır".

İ.Hüseynov onu da bildirdi ki, Rusiya tərəfinin mövqeyi bundan ibarətdir ki, hərbi topoqrafik xəritələr Rusiyanın müdafiə nazirliyinin baş qərargahındadır: "Ona görə də, sərhədlər nişanlanarkən bu xəritələr böyük ölçüdə yardımçı ola bilər. Məhz Rusiya tərəfinin bu proseslərdə məsləhətçi qismində iştirakı həm də müxtəlif maraqlı tərəflərində bu prosesdə ağırlıq qoyması ilə şərtlənir. Delimitasiyanın həyata keçirilməsi sonrakı dövrdə iqtisadi və nəqliyyat əlaqələrinin bərpa olunmasını, kommunikasiyaların açılmasını və yekun sülh müqaviləsinin imzalanması prosesini sürətləndirə bilər. Bütün bu işlər bir-biri ilə bağlılıq təşkil edir və müəyyən nizamın formalaşması, ardıcıllığın müəyyən olunması, koordinasiyanın həyata keçirilməsi siyasi atmosiferi bir qədərdə gücləndirir və dialoqun genişlənməsinə səbəb olur. Bu baxımdan, məhz komissiyanın iclası nəticəsində əldə olunan qərarlar düşünürəm ki, sülhün və təhlükəsizliyin daha da möhkəmləndirilməsinə xidmət etməlidir".

**G. Ağəkərimova**

# "AXCP və "Milli Şura" xarici fondların buyruq quludur"

**"Uzun illərdir ki, müxalifət milli siyasi məkanda yalnız öz maraqlarının təmin olunması baxımından fəaliyyətini qurub. Məhz adlarını müxalifət qoyan bu qaragüruhçular ölkəmizdə ictimai siyasi proseslərdə uğur qazana bilməyiblər, ictimai dəstəkdən məhrum olunublar". "Azadlıq Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov da "Səs" qəzetinə açıqlamasında bildirib.**

Onun sözlərinə görə "Milli Şura", AXCP və Müsavat xarici məkrli qüvvələrin sifarişlərini yerinə yetirməklə ölkədəki mövcud ictimai-siyasi sabitliyi pozmağa can atırlar: "Demək olar ki, sözügedən qüvvələr Azərbaycan dövlətinin əldə etdiyi uğurlara kölgə salmaq üçün əllərindən gələni edirlər. Ancaq xarici fondların buyuq qulu rolunda çıxış edən AXCP və "Milli Şura" nə etmələrindən asılı olmayaraq heç vaxtı məkrli planlarını reallaşdıra bilməyəcəklər. Çünki onların Azərbaycan xalqı tərəfindən heç bir siyasi dəstəyi yoxdur. Ümumilikdə müxalifətin olub, olmaması cəmiyyət üçün maraqlı deyil. Belə olan halda da müxalifətin nə isə uğur qazanmasından söhbət gedə bilməz".

Təşkilat sədri onu da bildirdi ki, yenə də müxalifət təmsilçiləri reallığı özündə əks etdirməyən xəyallara dalaraq pozucu xarakterli çağırışar edirlər: "Bütün bu kimi şoular onu bir daha göstərir ki, dağıdıcı müxalifət Azərbaycanın möhtəşəm uğurlarına kölgə salmaq istəyən xaricidə olan qüvvələr tərəfindən növbəti sifariş alıblar. Lakin mənasız və əsassız cabaların, müxalifət heç nəyə nail ola bilməyəcək. Nəhayətdə yorulub, əski mövqelərinə qayıdacaqlar".

**Gülyana**

# Həqiqi dondurmanı necə müəyyən edə bilərik?

**Uşaqlarımıza düzgün qidalanma vərdişlərini öyrətməliyik. Çünki yemək vərdişləri uşaqlıqdan formalaşmağa başlayır. Uşaqlar üçün oyun prioritetdir. Yemək vaxtı və qəlyanaltı kimi vərdişlər ancaq ailələr tərəfindən verildiyi təqdirdə əldə edilir.**

Uşaqlar şirniyyat və şokolad kimi sıx şəkərli desertləri sevirlər. Ancaq uşaqlara mükafat vermək, onları sevindirmək üçün şəkərli məhsullar vermək sağlamlıq üçün əlverişsizdir. Şəkər qəbulu da digər qidalara qarşı ikrah yarada bilər. Dondurma, tərkibində zülal və karbohidratlarla yanaşı, A, D və E vitaminləri, kalsium, fosfor, maqnezium, kalium kimi mineralların zənginliyi və balansına görə uşaqlarınızı bəsləyə biləcəyiniz uyğun qəlyanaltı və qəlyanaltı alternatividir.

## Dondurma zərərlidir?

Tərkibində, xüsusilə zülal və karbohidratlar olmaqla, A, B6, B12, C, D, E və K vitaminləri ilə yanaşı kalsium, fosfor, maqnezium, natrium, kalium, dəmir və sink kimi bir çox mineral ehtiva edən dondurma çox sağlam qida hesab olunur.

## Dondurma insanı zəhərləyə bilər?

Sərinləşdirici dadı ilə yay aylarının vazkeçilməzi olan dondurma qida zəhərlənməsi kimi xəstəliklərə səbəb ola bilər. Çünki hər bir süd məhsulu kimi süddən hazırlanan dondurma da düzgün şəraitdə saxlanmadıqda xarab olur. Südün tərkibinin pisləşməsi mikrobların çoxalmasına və bununla əlaqədar xəstəliklərə səbəb olur.

## Dondurmanın mədəyə nə zərəri var?

Qida dəyəri baxımından çox zəngin olan dondurma düzgün istehlak edilmədikdə, boğaz, bağırsaq və mədədə infeksiyalara səbəb ola bilər. Dondurmanı dişləyib böyük parça udmaq olmaz. Birbaşa udulmuş dondurma həm mədəyə, həm də bademciklərə zərər verə bilər.

## Bir gündə nə qədər dondurma yeyilə bilər?

Dondurmanın tərkibindəki şəkərə diqqət yetirmək çox vacibdir. Bu kontekstdə dondurmanın həftədə 2 gün, miqdarının isə 2-3 top ilə məhdudlaşdırılaraq istifadə edilməlidir.

## Dondurma pəhrizi pozur?

Sağlam qidalanma adekvat və balanslı qidalanma deməkdir. Kifayət qədər və balanslı qidalansanız və idmana lazımi əhəmiyyət verirsinizsə, dondurma istehlakında heç bir problem yoxdur. Dondurma həftədə 2-3 dəfə gündəlik pəhrizə əlavə oluna bilər.

## Çox dondurma istehlak etməyin zərəri nədir?

Dondurmanın tərkibində yağ olduğu üçün həddindən artıq istehlak qanda xolesterinin artmasına səbəb olur. Yüksək qan təzyiqinə səbəb ola bilər. Tərkibində yüksək miqdarda şəkər olduğu üçün qan şəkərinin yüksəlməsinə, hormonal balansın pozulmasına və çəki artımına səbəb ola bilər.

Son dövrlər populyar dondurma növü isə Maraş dondurmadır. Bəs, bu dondurma necə hazırlanır? Onun zərərləri nələrdir? İlə dondurmaya maraq niyə artmaqda davam edir? SİA araşdırma edərək qida üzrə ekspertlərin fikirlərini öyrənib.

## Həqiqi Maraş dondurma haradan alınmalıdır?

Kahramanmaraş dondurma deyildikdə ağla gələn ən qədim və ilk yerdir. Bu dondurma Türkiyənin Trabzon küçəsinin Kipr meydanı tərəfində olur.

## Maraş dondurma kimin kəşfidir?

Kahramanmaraş döymə dondurması Maraşlı Osman Ağanın səhləb salepini hazırlayarkən təsadüfən kəşf etdiyi desertdir. "Salepli Karsambaç" adı ilə başlayan desert üç nəsil sonra "Maraş dondurması" kimi tanınıb.

## Maraş dondurması niyə ərimir?

Maraş digər dondurma növlərindən daha yavaş əriyir. Çünki tərkibində konservant rolunu oynayan və daha güclü və möhkəm tekstura ilə təmin edən materiallar var.

## Maraş dondurmanın tərkibi nədən ibarətdir?

Maraş dondurması yalnız keçi südü, salep və şəkərdən hazırlanır.

**Dietoloq Ceyhunə Yusiofova**: "Maraş dondurması öz xüsusiyyətlərinə malik olduğu üçün çox faydalı və dadlıdır. İlk növbədə, orijinal reseptdə keçi südü istifadə olunur. Bundan əlavə salepdən də istifadə olunur.Və o da faydalı qidadır. Maraş dondurma buna görə də önə çıxır. Çünki dondurmaya həmin ləzzət və effekt verən bölgə məhsullarının istifadəsidir. Bundan əlavə Maraş dondurmasının ən əhəmiyyətli xüsusiyyəti digər dondurmalara nisbətən süd nisbətinin kifayət qədər yüksək olmasıdır.



Dondurma əsasən keçi südündən hazırlandığından kalsiumun miqdarı kifayət qədər yüksəkdir. Bu həm böyüklər, həm də uşaqlar üçün çox vacibdir. Xüsusilə böyüyən insanlarda sümük inkişafı üstünlükləri təmin edir.

Dondurmanın tərkibində həmçinin keçi südündən alınan maqnezium, fosfor, kalium, A və B vitaminləri də var.

Maraş dondurmasının tərkibində keyfiyyətli protein var. Tərkibində yüksək süd olduğu üçün zülal qəbul etməli olan insanlar üçün yaxşı alternativdir.

Xoşbəxtlik hormonu kimi tanınan serotoninin ifrazını təmin etdiyi üçün sinir sisteminə müsbət təsir göstərir. özünüzü daha yaxşı hiss etdirir və yatmağa imkan verir. Südü sevməyən uşaqlar üçün etibarlı alternativdir.

Üstəlik, keçi südü uşağınız üçün çox daha faydalıdır. Qida dəyəri daha yüksək olan süddür.

Dondurma əsasən xoşbəxtlik hormonunu stimullaşdırır və bədəndəki stress səviyyəsini azaltmağa kömək edir. Dondurmalar sinir sistemini rahatlamağa kömək edən təbii trankvilizator L-triptofan ehtiva edən süddən hazırlanır. Bundan əlavə, yuxusuzluq əlamətlərinin qarşısını almağa kömək edir.

Dondurmanın tərkibində qan laxtalanmasının qarşısını alan K vitamini var. O, həm də yaxşı enerji mənbəyidir. Kalsium və fosfor dondurmada olur. Kalsium sümüyü möhkəm saxlayır və böyrək daşı riskini azaldır.

Dondurma yeyərkən diqqət edilməsi lazım olanlar:

Bir çox desertdən daha aşağı olsa da, dondurmanın enerjisini nəzərə almağa dəyər. Bu səbəbdən yeməkdən sonra deyil, qəlyanaltı olaraq istehlak etmək çox daha yaxşı seçim olardı.

Dondurma yüksək zülal tərkibli qida olduğu üçün tez xarab olur və tərkibində zərərli mikroorqanizmlər çoxalır. Ona görə də heç vaxt soyuq zəncirini pozmuş, yəni əriyib yenidən dondurulmuş dondurmalardan istifadə etməyin.

Tez udmaq bədən istiliyindən çox aşağı olduğu mədə üçün zərərlidir. Dondurmanı mümkün qədər yavaş yeməyə diqqət edin, çünki bu, mədə kramplarına səbəb ola bilər.

Diş və ağız sağlamlığı baxımından hər hansı şəkərli qidada olduğu kimi dondurma yedikdən sonra su içməyi unutmayın.

Şəkər tərkibli bir qida olduğundan həftədə 2-3 dəfə 2 topdan çox istehlak etməməyə diqqət edin.

Faydaları üçün əsl süddən və həqiqi meyvələrdən hazırlananlara üstünlük verin".

AİB sədri Eyyub Hüseynov: "Dondurma yüksək kalorili və tez həzm olunan süd məhsuludur. Ona görə dondurmaların hazırlanmasında texnoloji olaraq kərə yağından istifadə edilməlidir. Lakin istehlakçılardan gələn şikayətlər göstərir ki, bəzən deyirlər ki, dondurmanı dilimizin üstünə qoyduqda boğazımızda acılıq əmələ gəlir. Bu o deməkdir ki, buna kərə yağı əvəzinə marqarinlər qarışdırılıb və artıq standartlardan kənara çıxılıb.

Ölkədə 20-dən çox dondurma istehsalçısı var və xarici ölkələrdən də Azərbaycana dondurma gətirilir. Təxminən bazarın 50 faizi xaricdən gətirilən dondurmalardır. Rusiyadan, Ukraynadan, Türkiyədən, İrandan və digər ölkələrdən gətirilir. Burada istehlakçıların narazılıq etdiyi cəhətlərdən biri dondurmaların uzun yararlılıq müddətinin olmasıdır. Əlbəttə dondurmanın uzun yararlılıq müddəti varsa bu o deməkdir ki, o daha çox kimyalaşıbdır. Hansı dondurmanın yararlılıq müddəti ilə buraxılma tarixi arasında məsafə kiçikdirsə, o dondurmalara üstünlük vermək lazımdır.

Dondurmalar əgər bükürüksə, qabıqları əzikdirsə, bu o deməkdir ki, hansısa ölkədən gətirəndə yolda temperatura məruz qalıbdır, əriyib, yenidən dondurublar. Artıq bu çirklənmiş dondurmadır. Belə dondurmaları, yəni qabığı əzilmiş dondurmaları almaqdan çəkinmək lazımdır. Bütün hallarda istehlakçının hüququ var ki, dondurma haqqında məlumat almaq istəsə dondurma satandan onun bütün sənədlərini, o cümlədən məişət sertifikatını və digər sənədləri tələb etmə hüquqları vardır.

O ki, qaldı ki, Azərbaycanda son 4-5 ildir yer tutmuş Maraş dondurmaları bu dondurmalar əsasən öz verdikləri məlumata görə keçi südündən hazırlanır və əslində prinsipial olaraq digər dondurmalardan bunun qeyri-adi heç bir fərqi yoxdur. Sadəcə olaraq keçi südündən hazırlanır və prinsipial olaraq heç bir xüsusi üstünlük keyfiyyəti yoxdur. Əlbəttə, şəkərlər, aromatizatorlar, dadvericilər, qoxu vericilər də əlavə olunur. Ölkənin əmtəə bazarında satılan xarici ölkələrdən gətirilmiş dondurmalarda bəzən biz mal nişanının mənimsənilməsi, bir ölkənin məşhur brendinin imitasiya olması hallarına da rast gəlirik.

2011-ildə ABŞ İnkişaf Agentliyi bizə müraciət etdi və Azərbaycan istehlakçılarının qida təhlükəsizlik nişanını təsis etdik. Təhlükəsiz qida istehsal edən müəssisələrə nişanın şamil olunması prosesi həyata keçirildi. Biz yalnız bir dondurma istehsalçısına bunu verə bildik ki, o da "İCELAND" dondurmalarıdır. Çünki digərləri uyğun gəlmirdi. Orada daim açıq monitorinqlər keçirilir. Bütün hallarda dondurmalardan şikayəti olanların AQTA-nın 1003 Qaynar Xəttinə zəng etmələrini tövsiyə edirəm".

***Ayşən Vəli***



# Ermənistanın keçid mərhələsindən GÖZLƏNTİLƏRİ

**Azərbaycanla, ümumiyyətlə bütün qonşuları ilə münasibətlərinə aydınlıq gətirmək, sülh danışıqlarını reallaşdırmaq, regionda marginallaşmış vəziyyətdən çıxmaq, öz çətin, acınacaqlı vəziyyətini düşünmək və bu vəziyyətdən çıxmaq üçün normal siyasət yürütmək əvəzinə Ermənistanda siyasi qeyri-sabitlik nəinki davam edir, hətta inkişaf edir desək, yanılmarıq. Böhrandan çıxmaq, ölkənin regionda gələcəyini, onun ümumi nəqliyyat və enerji təhlükəsizliyi sistemindəki yerini müəyyən etmək əvəzinə işğalçı ölkə hələ də siyasi intriqalarla məşğuldur və bu ölkənin hakimiyyətinin sanki müxalifəti təqib etməkdən başqa işi yoxdur.**









Heç şübhəsiz ki, erməni cəmiyyətinin potensialının hansı istiqamətə yönələcəyi Ermənistanın indiki və gələcək inteqrasiya layihələrində iştirakının olub-olmayacağını müəyyən edə bilər. Məsələ burasındadır ki, bu işğalçı ölkədəki mövcud vəziyyət nikbin proqnozlar vəd etmir, əksinə bunun əksini vəd edir. Elə bu səbəbdəndir ki, Ermənistanın küçə və meydanlarında mitinqlər, etiraz aksiyaları səngimək bilmir və biri-birini əvəz etməkdə davam edir. Məhz 1 iyun tarixində Uşaqların Beynəlxalq Müdafiəsi Gününə təsadüf edən qadın və uşaqların İrəvanda Fransa meydanından yürüşü də buna misaldır. Çoxlu sayda qadın uşaq arabasında olan uşaqları ilə birlikdə bu ölkə paytaxtının mərkəzi küçələrindən keçib və yürüşün şüarı da "təhlükəsiz vətəndə layiqli gələcək" olub. Deməli, erməni cəmiyyəti üçün də bəllidir ki, yaşadıqları ölkənin bu gedişlə hansısa layiqli gələcəyindən qətiyyən söhbət belə gedə bilməz.

Nə üçün Ermənistan suverenlik əldə etdikdən 30 il sonra növbəti onilliklərin təcrübəsini yenidən nəzərdən keçirərək siyasi inkişafın yeni vektorunu axtarmağa məcburdur? Bu zamana qədərki işğalçılıq siyasətinin, intriqaların, eləcə də riyakarlığın mənfi təzahürləri erməni cəmiyyətinə dərs olmadımı? Yaratdıqları miflərin cəmi 44 günlük müharibədə məhv olmasından da nəticə çıxarılmadımı? Yalan üzərində qurulan, yaxud da daxili auditoriyaya hesablanan siyasətin mənasız olduğu hələ də ermənilərə bəlli olmadımı, işğalçı ölkənin bütün uğursuzluqlarının fonunda? Məhz 44 günlük müharibədəki məğlubiyyət Ermənistan üçün ən böyük dərs olmalı idi və bu məğlubiyyətlərinin fonunda səhvlər dərk olunmalı, nəticə çıxarılmalı idi, amma bu müşahidə edilmir, əksinə, yenə də yanlış yolda olduqları görünür və belə bir vəziyyətdə müsbət istiqamətdə hansısa gözləntilərdən söhbət belə gedə bilməz.

Sirr deyil ki, 1990-cı illər Ermənistan üçün ilk keçid dövrü oldu. Ermənistanda bu dövrdə əvvəlcədən mövcud olan, bəslənilən separatizm ideyaları ön plana keçmişdi. Etnik təmizləmə, işğalçılıq siyasəti həmin zamanların bu keçid dövründə əsas ideya olaraq ənənəyə çevrildi. Məhz bu səbəbdən də millətçilik ideyaları ilə separatizm ideoloqları hakimiyyətə gəldi. Bu zaman isə Azərbaycanda mövcud olan hakimiyyətsizlik, yaxud hakimiyyətdə səriştəsizlərin olması onlar üçün münbit şərait hesab olunurdu və məhz həmin ideoloqların separatizm ideyaları üçün ən münasib zaman idi deyə mənfur ideyalarını ortaya qoydular. Doğrudur, erməni əsilli separatizm ideoloqlarının istəkləri, arzuları ürəklərində qaldı və nəzərdə tutduqlarına sona qədər nail ola bilmədilər, çünki bütün postsovet məkanında ən hörmətli siyasətçilərdən biri olan və Azərbaycan xalqının təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin mövqeyi, nüfuzu, uzaqgörənliyi, müdrikliyi, liderliyi sayəsində onların qarşısı alındı və atəşkəsə nail olunaraq sabitlik bərqərar olundu. Ulu Öndərin müdrik siyasəti, strategiyası ilə Azərbaycan inkişaf yoluna qədəm qoyaraq ən tez zamanda hər istiqamətdə güclü dövlətə çevrildi və sonda Ümummilli Liderin layiqli davamçısı, müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi, liderliyi, siyasi iradəsi, müdrikliyi, xalqımızın birliyi, Azərbaycan Ordusunun şücaəti ilə tarixi ədalət bərpa olundu. Eləcə də artıq separatçılıq ideyalarına yol qoyulmadı və beynəlxalq müstəvidə belə diplomatik qələbələrimiz sayəsində bunun qarşısı əzmlə alındı.

Bu zamana qədər yürütdükləri yanlış siyasət sayəsində Ermənistanın siyasi inkişafında da, digər istiqamətlərində də geriləmə qaçılmaz idi. Bunu da hər kəs müşahidə etdi. Ermənistan hakimiyyəti bu gün reallıqları görməlidir və doğru addım atılmayacağı təqdirdə bunun növbəti uğursuzluğa, hətta tamamilə məhv olmağa, mövcudluqlarını belə təhlükəyə atmağa gətirib çıxaracağını dərk etməlidir. Dərk etməlidir ki, işğalçılıqla, riyakarlıqla inkişafa, qurtuluşa ümid etmək yalnız axmaqlıq hesab oluna bilər.

İndi erməni cəmiyyəti özü belə hesab edir ki, Ermənistan ikinci keçid dövrünü yaşayır. Məhz müharibənin ermənilər, bütün Ermənistan üçün acı məğlubiyyətinin ardınca ölkədə əslində keçid dövrü olmalı idi də. Ona görə ki, bu işğalçı ölkənin sonda bütün qondarma fikirlərin, ideyaların, miflərin qurbanına çevrildiyi günün reallığıdır. Bu reallığı isə hamıdan öncə ermənilər, ələlxüsus da Ermənistan hakimiyyəti dərk etməlidir. Dərk etməlidir ki, bu zamana qədərki puc əfsanələrlə dövləti inkişaf etdirmək, acınacaqlı durumdan çıxarmaq mümkün deyil. Anlamalıdır ki, yaradılan miflər, edilən riyakarlıq nə bir dövlət olaraq Ermənistanı, nə də bir xalq olaraq erməniləri səfalət içindən xilas edə bilməz, necə ki, bu zamana qədər birmənalı şəkildə xilas edə bilməyib.

Yenə də Ermənistan növbəti bir keçid mərhələsindədir. Bu keçid mərhələsində buraxılan hərhansı səhv Ermənistanın da, erməni xalqının da əleyhinədir. Daxili çəkişmələr üçün Ermənistanın vaxtı belə yoxdur və indi doğru qərar verməyin, işğalçılıqdan əl çəkməyin, separatçılığı bir kənara qoymağın, qonşularla münasibətləri normallaşdırmağın tam zamanıdır. Hətta bir qədər gecikiblər də. Belə olan halda niyə sülh prosesi yubadılır? Məqsəd nədir? Bu keçid dövründə doğru addım atmalarına mane olan nədir? Ermənistandakı həmin bu mövcud keçid dövründə doğru addım atılmadığı təqdirdə nələrin olacağını ermənilər, Ermənistan hakimiyyəti dərk etmək istəmir, yoxsa ümumiyyətlə dərk etmir. Dərk etmirmi ki, artıq bu keçid dövrü ikinci yox, sonuncu keçid dövrü ola bilər və Ermənistan dünya xəritəsindən silinərək tarixin arxivinə keçə bilər? Belə davam edəcəyi halda qeyd etdiyimiz hal real gözlənti hesab olunmalıdır. Bilinməlidir ki, mövcud şəraitdə, bu dəfəki keçid dövründə Ermənistanın bir dövlət olaraq birdəfəlik silinib yoxa çıxması ən inandırıcı gözləntidir.

İrəvanla Bakı arasında bugünkü danışıqlar prosesi, danışıqların şərtlərinə Ermənistan tərəfinin əməl etməsi həmin ölkə və onun vətəndaşları üçün çox vacibdir. Bu məqam onların gələcəyini müəyyən edə bilər və Ermənitanın mövcudluğu da bu şərtlər daxilində inandırıcı görünür. Artıq Ermənistan silahlı qüvvələrinin məğlubedilməzliyi, Azərbaycan Ordusunun döyüşə bilməməsi, diaspor və avropalı tərəfdaşların dəstəyi ilə bağlı miflər darmadağın olub. Ermənistan ictimaiyyəti əmin olub ki, ölkənin problemləri sırf daxili siyasi gündəm çərçivəsindədir, bu çərmivədən kənara çıxmır və respublikadan kənarda heç kimi maraqlandırmır belə. Odur ki, sülh prosesinin tempinin səngiməsinə imkan verməmək baş nazir Nikol Paşinyanın maraqlarına cavab verir. Əlbəttə bu, keçmiş siyasi elitanın hakimiyyətə qayıtması halında bir sıra mümkün cinayət təqiblərinin qarşısını almağa kömək edəcək. İndiki Ermənistan hakimiyyəti Azərbaycanla dinc yanaşı yaşamaq şərtlərini könülsüz də olsa qəbul etmək məcburiyyətindədir. Əks halda gözləntilərin nədən ibarət olduğu bəlli məsələdir. Bəllidir ki, əks təqdirdə ermənilər hər mənada itirəcəklər. Şərtləri qəbul edəcəyi təqdirdə erməni reallığı millətçilikdən, düşmən və satqın axtarışından xilas oluna bilər. Bir sözlə, Ermənistanın keçid mərhələsindən gözləntiləri seçdikləri yoldan, verdikləri doğru və ya yanlış qərarlardan, davranışlarından birbaşa asılıdır. Bugünkü yanlış istiqamət, yəni sülh prosesinin yubadılması, şərtlərə məhəl qoyulmaması acı nəticələri gözləmək üçün əsaslı zəmin və şərait deməkdir.

***İnam Hacıyev***

# Bakı Enerji Həftəsində Rusiyanın ən böyük şirkətləri iştirak etdi

**Azərbaycanda Bakı Enerji Həftəsi başlayıb. Bu il o, eyni vaxtda 3 böyük tədbiri- ”Xəzərin neft və qazı”, ”Enerji və bərpa olunan enerji” beynəlxalq sərgilərini və Bakı Enerji Forumunu birləşdirdi. Enerji həftəsində dünyanın 31 ölkəsindən 250 şirkət iştirak edir. Əsas iştirakçılardan biri sərgilərdə ”Made in Russia” milli pavilyonu ilə təmsil olunan Rusiyadır. Moskva-Baku portalının hazırladığı reportajı oxucularımıza təqdim edirik.**



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

REPORTAJ

Bakı Enerji Həftəsi Xəzər regionunun neft-qaz və enerji sektorlarında ən mötəbər tədbirdir. Onun iştirakçıları arasında Şlumberger, Bos Şelf, Equinor, Qazprombank və başqaları kimi iri şirkətlər var. Həftənin əsas hadisələrindən biri Xəzər regionunda əsas neft və qaz layihələrini müzakirə etmək və enerji təhlükəsizliyini təmin etmək üçün hər il yüksək səviyyəli rəhbərləri bir araya toplayan beynəlxalq platforma olan ”Caspian Oil and Gas” sərgisidir. Şirkətlər neft hasilatı və enerjinin nəqli, neft və qaz sistemlərinin saxlanması və xidmətləri sahəsində innovativ texnologiyalar, eləcə də regionda cari və perspektiv neft-qaz layihələri və bir sıra digər nailiyyətləri nümayiş etdirəcəklər.








Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikovun sözlərinə görə, sərgidə xeyli sayda Rusiya müəssisələri iştirak edir: ”Perm vilayəti çox təsiredici ekspozisiya təqdim etdi. Enerji ehtiyatlarının və karbohidrogenlərin hasilatı və yönləndirilməsi ilə bağlı məsələlərə yeni texnoloji həllər təklif edən bu ekspozisiya ilə tanış olmaqdan məmnun oldum. Bu, bu sahədə elmi inkişafa ciddi töhfədir. Belə şeylər Azərbaycanın neft-qaz sənayesi üçün maraqlıdır. Bundan əlavə, burada başqa şirkətlərimiz də təmsil olunur. Biz Azərbaycanla neft-qaz sənayesində geniş əməkdaşlıq edirik”.

Sərgidə Rusiya İxrac Mərkəzinin rəhbərinin başçılıq etdiyi böyük biznes nümayəndə heyəti də iştirak edir.

Perm Vilayətinin ekspozisiyasında qubernator Dmitri Manoxin sərginin qonaqları ilə də söhbət edir. ”Biz ənənəvi olaraq bu forumun iştirakçılarıyıq, çünki Perm vilayətinin göstərməli olduğu şeylər var”- deyir. ”Müəssisələrimiz arasında əməkdaşlıq fəal templə gedir. 2021-ci ilin dekabrında biz işgüzar missiya ilə Bakıda olduq və kənd təsərrüfatı sahəsində əməkdaşlıq məsələlərini müzakirə etdik. Artıq 2022-ci ilin fevralında Azərbaycan hökumətinin nümayəndələri və sahibkarlar Permdə oldular. Bu gün bizim stendimizdə Perm ərazisindən 20 şirkət təmsil olunur. Bunlar robot texnikasına qədər müxtəlif sektorlardır. Məsləhətçi robotlardan qaz ötürmə sistemini diaqnostika edən robotlara qədər. Müəssisələrimiz İT sektorunda fərdi mühafizə vasitələri üçün yüksək texnologiyalı məhsullar istehsal edir. Biz neft və qaz hasilatı sahəsində Rusiya Federasiyasında lider olan şirkətləri təmsil edirik. Ona görə də bu, Azərbaycan üçün daha çox aktualdır. Onu da vurğulamaq istəyirəm ki, burada təmsil olunan şirkətlər Rusiya iqtisadiyyatında idxalı əvəz etmək baxımından rəqabətədavamlıdır və qiymət və keyfiyyət baxımından xarici istehsalçıların analoqlarından daha yaxşı məhsullar təklif edəcəklər”.

Anton Kondratyev Rusiyanın iri müəssisəsinin- Uralmaş Holdinqin ixrac direktorudur. Onun vəzifələrinə şirkətin məhsulları üçün yeni bazarlar tapmaq daxildir. ”Biz qazma qurğularının istehsalı ilə məşğuluq və Sovet dövründə məşhur ”Uralmaş”ın təhkimçiləriyik. Beləliklə, tezliklə 15000 nömrəli qazma qurğumuz olacaq. Biz Azərbaycanla SSRİ vaxtından işləyirik. Son çatdırılma 2011-ci ildə edildi, bundan sonra biz daxili bazara diqqət yetirmək qərarına gəldik. Amma indi biz yenidən Azərbaycana qayıtmaq istərdik”, - Kondratyev deyir.

Bakı Ekspo Mərkəzində keçirilən sərgidə Rusiyanın metallurgiya şirkətləri arasında lider mövqe tutan, dünyanın ən böyük polad istehsalçılarından biri olan Maqnitoqorsk Metallurgiya Zavodu da iştirak edir. Şirkətin Rusiyadakı aktivləri dəmir filizinin hazırlanmasından hazır məhsulların istehsalına qədər tam istehsal dövrü olan böyük polad əritmə kompleksini təmsil edir. Zavodun nümayəndəsi Yekaterina Danilenko deyir: ”Bu il biz müəssisəmizin 90 illik yubileyini qeyd edirik. Biz Azərbaycanla uzun müddətdir və sabit işləyirik. Biz bu qarşılıqlı faydalı əməkdaşlığı davam etdirmək və bu ölkədə yeni satış bazarları yaratmaq istərdik”.

Aleksandr Batuyev Rusiyanın V-1336 Enterprise şirkətini təmsil edir. ”Şirkət 30 ildən artıqdır ki, qazma parametrlərinə, quyuların təmirinə və digər əməliyyatlara nəzarət sistemini təmin edən proqram və aparat avadanlığı istehsal edir. Bizim əsas müştərilərimiz neft sənayesində xidmət işi ilə məşğul olan iri Rusiya şirkətləridir. Azərbaycanda bizim avadanlığımızdan istifadə edən bir neçə tərəfdaşımız var. Onlar əsasən SOCAR dövlət şirkətində çalışırlar. Biz Azərbaycanla gələcək qarşılıqlı faydalı əməkdaşlıq etmək üçün Bakıya qayıtdıq”- o bildirdi.

Bakı sərgisinə yeni gələn Kuybışevtelekom MMC-dir. Şirkətin nümayəndəsi Aleksey Tolkaçevin sözlərinə görə, şirkət qaz, buxar və mayenin ölçülməsi üçün sənaye sayğaclarının istehsalı ilə məşğul olur, yoxlama və kalibrləmə üçün metroloji xidmətlər göstərir. ”Şirkətimiz Rusiyada 2006-cı ildən fəaliyyət göstərir. Keçən ildən biz xarici bazarlara çıxmışıq. Azərbaycanda ilk dəfədir ki, sərgidə iştirak edirik, burada yeni tərəfdaşlar tapmağa, çatdırılma coğrafiyamızı genişləndirməyə çalışırıq. Azərbaycan bizim üçün yaxşı seçimdir, inkişaf etmiş neft-qaz ölkəsidir və ümid edirik ki, bu ölkə bizim yeni texnologiyalarımızla maraqlanacaq”,- Tolkaçev hesab edir.

Bakı Enerji Həftəsi iyunun 3-dək davam edəcək və neft-qaz sektorunda mühüm sazişlərin imzalanması ilə yekunlaşacağı gözlənilir.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
3 iyun
2022-ci il

# "Formula-1" üzrə Azərbaycan Qran-prisi canlı yayımlanacaq

"Formula 1" üzrə Azərbaycan Qran-prisi ölkə ərazisində canlı yayımlanacaq. SİA-nın məlumatına görə, Bakıdakı yarış "İdman TV"də ekranlara gətiriləcək.

Növbəti mərhələlərin yayımlanıb-yayımlanmayacağı hələlik bəlli deyil. Yeni mövsümün ilk Qran-priləri canlı göstərilməyib. Qeyd edək ki, cari mövsüm Azərbaycan Qran-prisi 10 - 12 iyunda gerçəkləşəcək.




# Uşaqlara bir qədər sərbəstlik vermək lazımdır

**"Dövlətlər insan resursları ilə hər zaman gələcəyin strategiyasını qururlar. Azərbaycan da elə ölkələr sırasındadır ki, burada gənc, uşaq və yeniyetmələr millətin 60 faizdən çoxunu təşkil edir. Bu baxımdan digər xalqlar və millətlərin çoxu bizə baxıb həsəd aparırlar". Bu sözləri SİA-ya açıqlamasında yazıçı kulturoloq, analitik ekspert Aydın Xan Əbilov deyib.**



EKSPERT AÇIQLADI

Onun sözlərinə görə, uşaqların intellektual inkişafı, hər hansı sahə üzrə peşəkarlaşması təhsildən asılıdır: "Azərbaycanda da təhsillə bağlı xeyli sayda proqramlar həyata keçirilir. Bu eksperimentlərin çox hissəsi uğur qazanmasa da, təhsilə qoyulan kapitalın çox önəmli yeri və əhəmiyyəti var.

Uşaqlarla bağlı Heydər Əliyev Fondunun, Gənclər Fondunun, QHT-lərin həyata keçirdiyi tədbirlər və layihələr uşaqların yüksək inkişafına təsir göstərir. Azərbaycanda böyük əksəriyyət uşaq dövlətin birbaşa qayğısı altındadır. Ali məktəbdə pulsuz təhsil ala bilirsinizsə, bu həmin dövlətin gənc vətəndaşlarına olan qayğısının böyük təzahürü kimi qəbul edilməlidir".

Aydın Xan Əbilov sözlərinə belə davam edib: "Uşaqların inkişafı üçün onun qidalanması, həkim müayinəsi və s. layihələr həyata keçirilir. Biz arzulayırdıq ki, keçmişdə ən yaxşı ənənələri yaşadaq, eyni zamanda aparıcı inkişaf etmiş dövlətlərdə olduğu kimi uşaqlara ruh və vəzifələri aydın surətdə göstərilən yeni uşaq inkişaf konsepsiyası və dövlət proqramı qəbul edilsin. Orada uşaqların inkişafı ilə yanaşı sağlam qidalanması, səhhətindəki sağlamlıq, bədən tərbiyə və idmanla məşğul olması, estetik yaradıcılıq imkanlarının genişləndirilməsi, xarici dil biliklərinin artırılması, eyni zamanda yay tətillərinin səmərəli keçirilməsi, boş vaxtlarının səmərəli keçirilməsi, hərəkətli tədbirlərin sayının çoxaldılması, xüsusən də uşaqların valideynlərin nəzarətindən kənar ictimai təchizatlarda böyüdülməsinə təsir göstərə biləcək layihələrin həyata keçirilməsi mütləq vurğulanmalı və qeyd edilməlidir.

Hər bir uşaq gələcəyin hər hansı bir sahəsində işləyən kadrı kimi qəbul edilməli, onların azad, sərbəst, kreativ düşüncəyə malik olması ilə bağlı xüsusi dəyər prinsipləri, dəyərlər sistemi hazırlanmalıdır. Uşaqlara bir qədər sərbəstlik vermək lazımdır".

*Ayşən Vəli*



# ABŞ prezidentini güllələyən şəxs azadlığa çıxır

**ABŞ-ın sabiq prezidenti Ronald Reyqana atəş açmış şəxs iyunun 15-dən azadlığa çıxa bilər. APA xəbər verir ki, hadisə 1981-ci il martının 30-da baş verib. Nyu-Yorkda oteldən çıxan prezidentə atılan güllə zirehli avtomobilə dəydikdən sonra sıçrayaraq dövlət başçısının ürək nahiyəsinə dəyib. Hücum zamanı daha 3 nəfər yaralanıb. Mühafizə xidməti hadisəni törədən Con Hanklini tutub.**

Hazırda 67 yaşı olan Hankli o zaman məhkəmənin hökmü ilə məcburi psixi müalicəyə cəlb edilib, polisin nəzarətində şəhərdən kənarda yaşamağa göndərilib. Ona Reyqanın yaxınları ilə danışmaq qadağan edilib.



## Qubada avtomobil 10 yaşlı uşağı vuraraq öldürüb

Qubada avtomobil 10 yaşlı uşağı vuraraq öldürüb. SİA-nın məlumatına görə, hadisə Quba şəhərində qeydə alınıb. Belə ki, "Mercedes-Benz" markalı avtomobil hərəkətdə olan zaman rayon sakini, 2012-ci il təvəllüdlü Süleymanlı Səlahəddin Süleyman oğlunu vurub.



Müxtəlif dərəcəli bədən xəsarətləri alan uşaq Quba Müalicə Diaqnostika Mərkəzinə yerləşdirilib. Lakin onun həyatını xilas etmək mümkün olmayıb. Faktla bağlı araşdırma aparılır.

## Başsağlığı

Sabir Yəhyayev, Mübariz Quliyev, Şəhla Tahirqızı Salam Babayevə anası

**Təzəgül xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

*Allah rəhmət eləsin.*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3220**